RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 9 (8888) ŞƏNBƏ, 15 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan və Ukrayna arasında əməkdaşlıq daha da dərinləşir

## Kiyevin Borispol Beynəlxalq Hava Limanında qarşılanma



Yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Kiyevin Borispol Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Ukrayna xarici işlər nazirinin birinci müavini Emine Caparova və digər rəsmi şəxslər qarşıladılar.

## Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək görüşü olub





Yanvarın 14-də Prezident Volodimir Zelenskinin dəvəti ilə Ukraynada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı. Prezidentlər birgə foto çəkdirdilər.

Azərbaycan nümayəndə heyəti Ukrayna Prezidenti Volodimir Zelenskiyə, Ukrayna nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edildi.

Sonra dövlət başçılarının təkbətək görüşü oldu.

Prezidentlər görüşdə iki ölkə arasında əlaqələrin müxtəlif sahələrdə inkişafı ilə bağlı məsələləri müzakirə etdilər.

# Hər zaman bütün məsələlərdə qardaş Türkiyənin yanında olmağa davam edəcəyik

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana



Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Sizi və qardaş Türkiyə xalqını Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

14 yanvar 1992-ci ildə qardaş Türkiyə ilə diplomatik əlaqələrin yaradılması Azərbaycan Respublikasının tarixində əlamətdar hadisə olmuşdur. XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuş Azərbaycanın ilk olaraq Türkiyə tərəfindən tanınması və sonra da diplomatik münasibətlərin qurulması əsl qardaşlıq və həmrəylik nümunəsi kimi xalqımızın milli yaddaşına əbədi olaraq həkk olunmuşdur.

Böyük fərəh hissi ilə qeyd etmək istəyirəm ki, ötən dövr ərzində Azərbaycan-Türkiyə münasibətləri möhtəşəm inkişaf yolu keçmişdir. Ölkələrimiz tarixi sınaqlardan şərəflə və başıuca çıxaraq “Bir millət, iki dövlət” şüarının ruhuna sadiqliyini təsdiq etmiş, onu yaşatmışdır.

Xalqlarımızın əsrlərdən-əsrlərə keçən birliyi, qardaşlığı və dostluğu kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz bu gün özünün ən yüksək səviyyəsindədir. Qardaş ölkələrimizin istər siyasi, iqtisadi, ticari, mədəni, enerji, hərbi, texnoloji və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı, istərsə də beynəlxalq təsisatlar çərçivəsində uğurlu iş birliyi bizi sevindirir. Gerçəkləşdirdiyimiz nəhəng enerji, nəqliyyat, infrastruktur layihələri ortaq təşəbbüslərimizin və birgə səylərimizin real təntənəsidir. İkitərəfli əməkdaşlıq zəminində əldə etdiyimiz misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda əmin-amanlığın və sabitliyin bərqərar olmasına töhfə verir.

Keçən ilin iyununda bütün Türk dünyasının qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması sarsılmaz birliyimizi bir daha təsdiq edən mühüm tarixi addım idi. Bu sənəd Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının konseptual istiqamətlərini müəyyən edərək, gələcək müştərək müvəffəqiyyətlərimizə yol açan yeni mərhələnin əsasını qoymuşdur.

Əziz Qardaşım!

Dünyada bərabəri olmayan, dostluq və qardaşlığın ən gözəl nümunəsi olan Azərbaycan-Türkiyə münasibətlərinin, müttəfiqliyinin inkişafı və möhkəmlənməsində Sizin xidmətləriniz əvəzsizdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı hər zaman ortaya qoyduğunuz qəti və birmənalı mövqe, haqq işimizə verdiyiniz tərəddüdsüz dəstək bizi daim ruhlandırır və əlavə güc verirdi. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsinin ilk saatlarından son dəqiqələrinə qədər şəxsən Sizin, Türkiyə Respublikasının, qardaş xalqınızın nümayiş etdirdiyi mənəvi dəstəyi, həmrəyliyi heç zaman unutmayacaq. Bu gün də işğaldan azad edilmiş torpaqların əsaslı yenidənqurulması və bərpası işlərində Türkiyə ilə çiyin-çiyinə bir yerdə irəliləməyimiz böyük məmnunluq doğurur. Biz də öz növbəmizdə hər zaman bütün məsələlərdə qardaş Türkiyənin yanında olmağa davam edəcəyik.

Əminəm ki, bu günün reallığı və xalqlarımızın qürur mənbəyi olan nümunəvi Azərbaycan-Türkiyə birliyi və qardaşlığı gələcək nəsillərə strateji yol xəritəsi, əbədi və sarsılmaz miras olaraq qalacaqdır.

Sizi bu əlamətdar tarixi ildönümü münasibətilə bir daha səmimiyyətlə təbrik edir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 yanvar 2022-ci il*

## Qafqazın ən böyük külək-elektrik stansiyası

### 300 min ev elektrik enerjisi ilə təmin ediləcək, 220 milyon kubmetr qaza qənaət olunacaq, 400 min ton karbon qazının atmosferə atılması azalacaq

Yanvarın 13-də Azərbaycanın iqtisadi-siyasi həyatında daha bir tarixi hadisə yaşandı. Gülüstan sarayında 240 MVt gücündə “Xızı-Abşeron” Külək-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirildi.

Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən inşa ediləcək bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək. Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük külək elektrik stansiyası olacaq “Xızı-Abşeron” KES həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, həm də təbii qaza qənaətlə bağlı məsələlər həllini tapacaq. Eyni zamanda ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaq.

### Dünyanın ilk hibrid tipli elektrik stansiyası Azərbaycandadır

XXI əsrdə məlum səbəblərdən ekoloji durumun korlanması, dünyanın karbohidrogen ehtiyatının tükənməsi və həmçinin dünyanın gündən-günə enerjiyə olan tələbatının artması ilə əlaqədar olaraq alternativ enerji mənbələrindən və xüsusilə külək enerjisindən istifadə edilməsi günümüzün mühüm məsələlərindəndir.

*Ardı 6-cı səh.*



# Bu günə və gələcəyə strateji baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər müsahibəsi bir hadisədir. Dövlət rəhbərimizin yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibə də toxunduğu mövzularla, səsləndirilən fikirlərlə böyük bir tarixə çevrildi.

Prezident İlham Əliyev əsasən, 2021-ci ildə ölkəmizdə iqtisadi, sosial sahələrdə görülən tədbirlər, Azərbaycanla Ermənistan arasındakı münasibətlər, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işləri, ölkəmizin xarici siyasəti və digər məsələlərə dair sualları əhatəli şəkildə cavablandırdı. Onu da qeyd edək ki, bu, dövlət rəhbərimizin 2022-ci ildə ilk müsahibəsidir. Ötən il ərzində isə ölkə rəhbərimiz yerli və xarici mediaya ümumilikdə 11 geniş müsahibə verib. Prezident İlham Əliyev müxtəlif vaxtlarda xarici media orqanlarından Türkiyənin “CNN Türk” televiziya kanalının, “Anadolu” Agentliyinin, İspaniyanın EFE İnformasiya Agentliyinin, İtaliyanın “La Repubblica” qəzetinin, Rusiyanın “Rossiya-1” telekanalının, İspaniyanın “El Pais” qəzetinin, İtaliyanın “İl Sole 24 Ore” qəzetinin suallarını cavablandırıb.

Bu müsahibələrin hər birində respublikada gedən inkişaf proseslərinə, Vətən müharibəsindəki qələbəmizdən sonra regionda yaranmış yeni vəziyyətə, postmüharibə dövrünün reallıqlarına, Azərbaycanın müxtəlif məsələlərlə bağlı mövqeyinə geniş yer ayrılıb.

### Dünya miqyasında ən yüksək göstərici

12 yanvar tarixdə yerli televiziyalara müsahibəsində isə Azərbaycan Prezidenti, ilk növbədə, iqtisadi məsələlərə dair suallara cavab verdi. İl ərzində ölkəmizdə iqtisadi artımın 5 faizdən çox olduğunu diqqətə çatdırdı, müharibədən yenicə çıxmış ölkə üçün bunu gözəl bir göstərici kimi xarakterizə etdi. Qeyri-neft iqtisadiyyatımızın 7,2 faiz artmasını da sevindirici hal kimi qiymətləndirdi. Dövlət rəhbərimizin verdiyi açıqlamadan məlum oldu ki, Azərbaycanda ümumi sənaye istehsalı il ərzində 5 faizdən çox artıb.

*Ardı 5-ci səh.*

## ◆ Dünya gündəmi

# Avropada müharibə təhlükəsi artır

## ATƏT sədri xəbərdarlıq etdi

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri və Polşa XİN rəhbəri Zbiqnev Rau Avropada müharibə təhlükəsi barədə xəbərdarlıq edib.

Bəyanat Vyanada ATƏT-in Daimi Şurasının Avropada təhlükəsizlik məsələlərinə, o cümlədən Ukrayna böhranına və Rusiyanın “təhlükəsizliyə təminat” tələblərinə həsr olunmuş iclasında səsləndirilib. Avropada müharibə təhlükəsi ötən 30 ildə olduğundan daha böyükdür”, - deyə Rau bildirib.

### “Böhran bütün Avropa sisteminin sabitliyini təhdid edir”

Diplomat Rusiya və ABŞ da daxil olmaqla, 57 ölkənin nümayəndələri qarşısında çıxış edib və regional gərginliyin azaldılması üçün ATƏT-in formatından istifadə etməyə çağırıb.

*Ardı 8-ci səh.*

# “Omikron” koronavirusa yoluxma rekordlarını yeniləyir

COVID-19-un yeni ştamı olan “Omikron”un dünyada sürətlə yayılması yoluxma statistikası ilə bağlı rekordların yenilənməsinə səbəb olur. Yalnız Avropa regionunda 2022-ci ilin ilk həftəsində COVID-19-a 7 milyondan çox yeni yoluxma qeydə alınıb.

Avropada koronavirusa yoluxanların sayı 100 milyon nəfəri keçib. Artıq bu bölgədə 26 ölkənin hər birinin əhalisinin 1 faizindən çoxu hər həftə COVID-19-a yoluxur. “Omikron” ştamı Avropa və Mərkəzi Asiya regionunda demək olar ki, tam olaraq, yayılıb. Ümumilikdə son bir həftə ərzində dünya üzrə 15 milyondan çox insan COVID-19-a yoluxub ki, bu da indiyə qədər bir həftə ərzində qeydə alınmış yoluxma sayına görə ən yüksək göstəricidir. Yoluxma halları ən çox ABŞ-da, daha sonra Hindistan, Braziliya, Böyük Britaniya və Rusiyada baş verir. Ən çox ölüm halları da ABŞ-da, daha sonra Braziliya, Hindistan, Rusiya və Meksikada qeydə alınır.

“Yeni il tətilləri ölkədəki epidemioloji vəziyyətə təsir etməyə bilməzdi”, - deyən Rusiya Prezidenti Vladimir Putin də bu günlərdə verdiyi açıqlamasında ölkəsinin yeni koronavirus alovlanmalarının ortaya çıxması ərəfəsində olduğunu söyləyib.

*Ardı 8-ci səh.*



# Azərbaycan və Ukrayna arasında əməkdaşlıq daha da dərinləşir

## Azərbaycan və Ukrayna beynəlxalq platformalarda bir-birinin maraqlarını müdafiə edən dövlətlərdir



Yanvarın 14-də Ukraynada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Volodimir Zelenskinin geniş tərkibdə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirən Ukrayna Prezidenti **Volodimir ZELENSKİ** çıxış edərək dedi:

- Təşəkkür edirəm!

Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə gözəl, çox məzmunlu söhbətimiz oldu. Mən onu, onun komandasını, xüsusən indiki vaxtda, COVID-ə baxmayaraq Ukraynada görməyimə çox şadam. COVID, həqiqətən, ölkələrimiz üçün böyük təhdiddir. Lakin biz başa düşürük ki, COVID-lə mübarizə aparmalıyıq, görüşməliyik ki, gələcəkdə ölkələrimiz arasında gözəl münasibətləri inkişaf etdirək.

Ukraynanı, bizim suverenliyimizi, dövlətlərimiz arasında mövcud olan birgə layihələri dəstəklədiyinizə görə Sizə təşəkkür edirəm. Əminəm ki, həmin layihələr gələcəkdə bizim münasibətlərimizi inkişaf etdirəcək.

Bu gün biz bir neçə məsələni qaldırdıq: enerji xarakterli, infrastruktur, nəqliyyat məsələləri, hərbi-texniki əməkdaşlıq və sair - çoxlu məsələlər. Düşünürəm ki, aqrosənaye kompleksi məsələsi ən vacib məsələdir, ona görə ki, bu gün ərzaq təhlükəsizliyi təbabətdə təhlükəsizlik və ya dünyada prioritet olan enerji təhlükəsizliyi və müstəqillik ilə müqayisədə heç də az aktual deyil. Fikrimcə, bu birgə layihələrin başlanğıcı kimi mühüm sənədləri biz hökmən imzalayacağıq və bu layihələrin nazirliklər səviyyəsində tamamlanmasını davam etdirəcəyik.

Azərbaycan Prezidentinə bir daha təşəkkür etmək istəyirəm ki, belə mürəkkəb bir zamanda Ukraynaya səfər üçün vaxt tapıb. Bu, birinci səfər deyil və artıq dəqiq başa düşürəm ki, sonuncu səfər də deyil.

* * *

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Təşəkkür edirəm cənab Prezident, məni Ukraynaya dəvət etdiyiniz üçün Sizə minnətdaram. Şadam ki, yenidən gözəl ölkənizə səfər edirəm. Qeyd etdiyiniz kimi, bu gün keçirdiyimiz təkbətək görüş çox məhsuldar olub. Ukrayna və Azərbaycan uzun illər ərzində bir-biri ilə uğurla əməkdaşlıq edir, biz beynəlxalq platformalarda da bir-birimizin maraqlarını müdafiə edirik. İki ölkənin bir-birinin ərazi bütövlüyünün qarşılıqlı surətdə dəstəklənməsi, müdafiə edilməsi əməkdaşlığımızın səviyyəsindən xəbər verir. Bu gün siyasi dialoqla bərabər, çox geniş iqtisadi gündəliyimiz var. Bu gün biz Sizinlə bu gündəliyi geniş, bir-bir müzakirə etdik və qeyd etdiyiniz kimi, çox gözəl perspektivlər var.

Şadam ki, artıq iqtisadi sahədə canlanma var, baxmayaraq ki, pandemiya hələ davam edir. Amma ticarət dövriyyəmizin qalxmasına nəzər salsaq görərik ki, müsbət meyillər mövcuddur. Bu gün müzakirə etdiyimiz və əminəm ki, həyata keçiriləcək məsələlər və layihələr bizim iqtisadi əməkdaşlığımızı dərinləşdirəcək. Ənənəvi olaraq energetika sektorunda bizim əməkdaşlığımız var, Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR uzun illər Ukraynada fəaliyyət göstərir və bu fəaliyyəti genişləndirmək istəyir. Nəqliyyat, kənd təsərrüfatı, turizm sektorlarının da böyük perspektivləri var. Əsas odur ki, hökumətlərarası komissiya bütün bu məsələləri geniş təhlil edib konkret qərarların hazırlanması ilə bağlı bundan sonra da fəal məşğul olsun. Mən komissiyanın fəaliyyətini müsbət qiymətləndirirəm və eyni zamanda müxtəlif dövlət qurumları arasındakı təmaslar da son vaxtlar daha intensiv xarakter alır. Həm qarşılıqlı səfərlər, eyni zamanda telefon vasitəsilə təmaslar bir çox məsələlərin həllinə xidmət göstərir.

Ukrayna ilə Azərbaycan arasında uzun illər qarşılıqlı surətdə faydalı əlaqələr davam edir. Əminəm ki, bu səfərdən sonra biz əməkdaşlığımızın daha da dərinləşməsini, bütün sahələrdə dərinləşməsini görəcəyik. Bir daha dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm.

* * *

Görüşdə iqtisadi sahədə, o cümlədən kənd təsərrüfatı, nəqliyyat, enerji, qida təhlükəsizliyi sahələrində əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi.

## İmzalanan sənədlər iki ölkəni daha da yaxınlaşdıracaq



Yanvarın 14-də Kiyevdə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Volodimir Zelenskinin iştirakı ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsini imzaladılar.

Azərbaycan Respublikasının energetika naziri, Hökumətlərarası komissiyanın həmsədri Pərviz Şahbazov və Ukrayna Baş nazirinin müavini, Hökumətlərarası komissiyanın həmsədri İrina Vereşçuk Ukrayna Nazirlər Kabineti ilə Azərbaycan Respublikası Hökuməti arasında "Qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Sazişi imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Ukrayna Baş nazirinin müavini, Hökumətlərarası komissiyanın həmsədri İrina Vereşçuk Ukraynanın İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında "İkitərəfli ticarətdə təcili əməkdaşlıq haqqında" Anlaşma Memorandumunu imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Ukraynanın aqrar siyasət və ərzaq naziri Roman Leşçenko Ukrayna Aqrar Siyasət və Ərzaq Nazirliyi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında "Aqrar sahədə əməkdaşlıq haqqında" Anlaşma Memorandumunu imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və "Neft-qaz Ukrainı" Milli Səhmdar Şirkəti" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Yuri Vitrenko "Neft-qaz Ukrainı" Milli Səhmdar Şirkəti" Səhmdar Cəmiyyəti ilə Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR arasında "Energetika sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumunu imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Ukraynanın Geodeziya, Kartoqrafiya və Kadastr üzrə Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən Sergiy Zavadski Ukraynanın Geodeziya, Kartoqrafiya və Kadastr üzrə Dövlət Xidməti ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında "Torpaq münasibətləri, dövlət torpaqlarının idarə edilməsi və dövlət torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumunu imzaladılar.

# Ölkələrimizi dostluq əlaqələri birləşdirir

*Yanvarın 14-də Ukraynada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış ediblər.*

*AZƏRTAC xəbər verir ki, əvvəlcə Ukrayna dövlətinin başçısı bəyanatla çıxış edib.*

## Prezident Volodimir Zelenskinin bəyanatı



- Çox sağ olun.

Sabahınız xeyir, hörmətli jurnalistlər, hörmətli qonaqlar.

Hörmətli cənab Prezident.

Xanımlar və cənablar.

Bu gün mən məmnuniyyətlə Kiyev şəhərində bizim etibarlı tərəfdaşımız, mənim dostum Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərini salamlayıram. Onun səfəri böyük rəmzi xarakter daşıyır, xüsusi bir səfərdir. Əslində, bizim ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf edən bu səfər baş tutur.

Bu gün biz siyasət, iqtisadiyyat və təhlükəsizlik sahəsində fikir mübadiləsi apardıq. Ukrayna və Azərbaycan prezidentləri bəyanat imzaladılar. Bunun sayəsində suverenlik və ərazi bütövlüyü məsələlərində ölkələrimiz arasında dəstək verəcəyik, bizim beynəlxalq səviyyədə müəyyən edilmiş sərhədlərin qorunması üçün çalışacağıq. O cümlədən biz təhlükəsizlik məsələləri - Xəzər və Qara dəniz hövzələrində təhlükəsizlik məsələləri ilə məşğul olacağıq, terrorçuluğa qarşı birgə mübarizə aparacağıq, bütün çətinlikləri birgə nəzərdən keçirərək istər regional, istər qlobal çətinlikləri birgə araşdıraraq cavab həllərini hazırlayacağıq.

Biz həmçinin, təbii ki, münasibətlərimizin gücləndirilməsinə xüsusi diqqət yetirəcəyik. Kənd təsərrüfatı, nəqliyyat, energetika, ticarət sahələrinə aid olan ikitərəfli 6 sənəd imzalandı. Bunlar çox vacibdir. Qarşımızda planlarımız çoxdur və bu gün biz cənab Azərbaycan Prezidenti ilə geniş müzakirə apardıq. Bizim məhz qida təhlükəsizliyi sahəsində razılaşmamız, o cümlədən ticarət sahəsində aparılan müzakirələr geniş imkanlar yaradır.

Əlbəttə, biz bilirik ki, pandemiya qlobal səviyyədə hələ davam edir. Lakin COVID-19-a baxmayaraq, əslində, 7 il ərzində ilk dəfə olaraq bizim ikitərəfli ticarətimizin dövriyyəsi təxminən artıq 1 milyard dollara çatıb. Bu, bizim qarşımızda daha mühüm məqsədlər qoymağa imkan yaradır. 2024-cü ilə qədər bizim ticarət dövriyyəmizin bundan sonra da artırılması ilə bağlı dəqiq planımız var. Biz həmçinin bir sıra birgə genişmiqyaslı layihələr əsasında sərmayələrin qoyulması, Azərbaycanda bərpa işlərinin aparılmasında iştirak etmək fikrindəyik. Mən infrastruktur layihələrini nəzərdə tuturam. Ukraynanın şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə iştirak edə bilərlər. İndicə cənab Azərbaycan Prezidenti bizi dəvət etdi. Təbii ki, Azərbaycan şirkətləri də Ukraynada fəaliyyət göstərirlər. Biz eyni zamanda, təbii ki, avtomatlaşdırma və bu kimi sahələrdə şirkətlərimizlə əməkdaşlığın genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu əməkdaşlıq qarşılıqlı şəkildə faydalı ola bilər.

Biz həmçinin bu ilin birinci yarısında hökumətlərarası birgə iqtisadi komissiyanın növbəti iclasının keçirilməsi ilə bağlı razılığa gəldik. Azərbaycan və Ukrayna prezidentləri bu məsələyə də öz dəstəklərini veriblər. Biz həmçinin tranzit potensialını nəzərdən keçirdik və belə bir nəticəyə gəldik ki, müxtəlif dövlət qurumları və agentlikləri arasında bu təmasları daha da genişləndirərək bu sahədə təcrübəni artırmalıyıq. Daha sonra aviasiya sahəsində istərdik əməkdaşlığımız genişlənsin. Bir sıra təşəbbüsləri irəli sürmüşük. Tutaq ki, nəqliyyat dəhlizlərinin GUAM çərçivəsində daha da genişləndirilməsində iştirak etməliyik. Burada Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna var, bildiyiniz kimi, bu əlaqələr genişlənməlidir. Kənd təsərrüfatı sahəsinə gəldikdə, biz əməkdaşlıq üzrə razılığa gəlmişik. Daha sonra titanın istehsalı sahəsində müzakirələr aparmışıq.

Yekun olaraq icazə verin, cənab Prezident İlham Əliyevə və onun rəhbərlik etdiyi nümayəndə heyətinə təşəkkürümü bildirim. Onlar həmçinin mənim Sizin ölkənizə səfərimi xatırlatdılar. Bizə göstərilmiş qonaqpərvərlik hələ də yadımdadır və hesab edirəm ki, məhz bu gündən etibarən bizim strateji tərəfdaşlığımız sahəsində biz yeni səhifəni açacağıq.

Mən bunu tarixi bir səfər adlandırıram. Bizim çoxəhatəli əməkdaşlığımız var.

Bir daha cənab Prezident, Sizə təşəkkürümü bildirirəm. Diqqətinizə görə minnətdaram.

* * *

Sonra Azərbaycan dövlətinin başçısı bəyanatla çıxış edib.

## Prezident İlham Əliyevin bəyanatı



Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

Xoş sözlərə görə cənab Prezident, Sizə təşəkkürümü bildirirəm. Məni Ukraynaya səfərə dəvət etdiyiniz üçün də Sizə minnətdaram. Mən çox şadam ki, Ukrayna-Azərbaycan əlaqələrində çox ciddi irəliləyiş var. Bizim aramızda yüksəksəviyyəli siyasi dialoq aparılır. Biz Prezident Zelenski ilə keçən ay, düz bir ay bundan əvvəl Brüsseldə görüşmüşük. Prezident Zelenski qeyd etdiyi kimi, 2019-cu ilin sonunda Azərbaycana səfər etmişdir. Yəni biz təmasları möhkəmləndiririk və müzakirələr əsnasında iki ölkə arasındakı gələcək inkişaf perspektivlərini həm müzakirə edirik, həm də ki vacib qərarlar qəbul edirik. O cümlədən bu gün keçirdiyimiz çox geniş fikir mübadiləsi nəticəsində əminəm ki, yaxın gələcəkdə biz yeni, gözəl hadisələrin şahidi olacağıq.

Prezident qeyd etdiyi kimi, yaxın gələcəkdə biz diplomatik münasibətlərimizin 30 illiyini qeyd edəcəyik, fevralın 6-da. Bildirməliyəm ki, müstəqillik dövründə Ukrayna və Azərbaycan hər zaman bir-birini dəstəkləmişlər, hər zaman bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini dəstəkləmişlər və bu dəstək bu gün birgə imzaladığımız Birgə Bəyannamədə də öz əksini tapır.

Xalqlarımızı dostuq əlaqələri birləşdirir və bildiyiniz kimi, Azərbaycanda Ukrayna xalqının mədəniyyətinə çox böyük maraq və böyük hörmət var. Bu hörmətin əlamətini Bakı şəhərində də görmək olar. Bakının mərkəzi yerlərinin birində böyük Ukrayna oğlu Taras Şevçenkonun abidəsi bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə ucaldılmışdır və onun adına olan parkda həm Bakı sakinləri, həm şəhərimizin qonaqları istirahət edirlər. Eyni zamanda Bakının ən böyük meydanlarının biri Ukrayna adını daşıyır. Yəni bu faktlar özlüyündə onu göstərir ki, xalqlarımız arasında əlaqələrin böyük tarixi var və biz bu əlaqələri qoruyuruq.

Bu gün geniş müzakirə etdiyimiz məsələlər haqqında Prezident artıq öz çıxışında bildirdi. Əlavə etmək istəyirəm ki, müzakirə etdiyimiz bütün istiqamətlər üzrə konkret fəaliyyət proqramının işlənməsi ilə bağlı bu gün müvafiq göstərişlər verildi. Həm birgə hökumətlərarası komissiyasının rəhbərliyinə, həm aidiyyəti qurumların rəhbərlərinə və əminəm ki, iki aydan sonra birgə komissiyanın Bakıda keçiriləcək növbəti iclasında artıq konkret qərarların verilməsinin də şahidi olacağıq.

Ənənəvi əməkdaşlıq sahəsi olan energetika sahəsində yeni planlarımız var. Əminəm ki, bu planlar həyatda öz əksini tapacaq. Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR Ukraynada öz fəaliyyətini genişləndirmək əzmindədir və şadam ki, Ukrayna tərəfi də bunu dəstəkləyir. Hazırda SOCAR-ın Ukraynada geniş yanacaqdoldurma stansiyalardan ibarət şəbəkəsi var və əlbəttə ki, neft və neft məhsullarının ixracı və emalı ilə bağlı yeni addımların atılması bizim əməkdaşlığımızı daha da dərinləşdirəcək. Enerjinin digər növləri üzrə əməkdaşlıqla bağlı fikir ayrılığı yoxdur.

Şadam ki, ticarət dövriyyəmiz pandemiyaya baxmayaraq, keçən il 20 faizdən çox artıb və mən ümid edirəm ki, yaxın gələcəkdə 1 milyard dollar səviyyəsinə çatacaq, bəlkə də ondan çox. Çünki bizim bu gün imzaladığımız sənədlərin və müzakirə olunan digər məsələlərin həyatda öz əksini tapması, əlbəttə ki, iki ölkə arasındakı ticarət dövriyyəsinin artırılmasına da mütləq xidmət edəcəkdir.

Hesab edirəm ki, ərzaq təhlükəsizliyi ilə bağlı bu gün əldə edilmiş razılaşmalar Azərbaycana imkan verəcək ki, öz ərzaq təhlükəsizliyini daha geniş həcmdə təmin etsin. Eyni zamanda birgə müəssisələrin yaradılması, kənd təsərrüfatı məhsullarının emalı və ixracı ilə bağlı birgə fəaliyyət üçün bu gün zəmin yaradılmışdır. Bu, bir yenilikdir, bizim əlaqələrimizdə bu sahə ilə bağlı hesab edirəm ki, atılan ən mühüm addımlardan biridir. Bütün başqa sahələrdə də biz əməkdaşlığa açığıq.

Bir daha demək istəyirəm ki, bizim əməkdaşlığımızın təməlində dostluq əlaqələri dayanır və ümid edirəm ki, bu gün ilin əvvəlində həyata keçirilən bu səfər həm bu ili ikitərəfli müstəvidə yaxşı nəticələrlə başa vurmağa xidmət göstərəcək, həm də gələcək illər üçün də gözəl zəmin olacaq.

Bir daha hörmətli cənab Prezident, dəvətə, qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Fürsətdən istifadə edərək, Sizi yenidən Bakıya səfərə dəvət edirəm. Sağ olun.

## Ukrayna Prezidenti Volodimir Zelenskinin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə lanç verilib

Yanvarın 14-də Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenskinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə lanç verilib.

## İşgüzar səfər başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfəri yanvarın 14-də başa çatıb.

## İsrail Dövlətinin Prezidenti zati-aliləri cənab İsxak Hersoqa

Hörmətli cənab Prezident!

Ananız - Aura Hersoqun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 yanvar 2022-ci il*

## S.A.Salahlının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Səyyad Adil oğlu Salahlı "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2022-ci il*

## Baş nazir Əli Əsədov Türkiyənin vitse-prezidentini iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbrik edib



Baş nazir Əli Əsədov Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Türkiyənin vitse-prezidenti Fuat Oktaya təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, Baş nazir məktubunda bildirib: "Müstəqillik tariximizdə diplomatik əlaqələr yaratdığımız ilk dövlət olan Türkiyə ilə Azərbaycanı dərin tarixi kökləri, ortaq milli-mənəvi dəyərləri ilə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsindən irəli gələn sarsılmaz dostluq və qardaşlıq münasibətləri birləşdirir.

Bu möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimiz ötən dövrdə böyük inkişaf yolu keçərək, xüsusilə də son illər ərzində dövlət başçılarımızın qətiyyətli səyləri ilə dayanıqlı strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək səviyyəsinə çatıb".

Məktubda vurğulanıb ki, Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı bütün dünya buna bir daha əmin oldu. Zəfər yürüşünün ilk günlərindən Azərbaycana göstərilən siyasi-mənəvi dəstəyə görə qardaş Türkiyə tərəfinə minnətdarlıq bildirilib, Azərbaycanın da öz növbəsində bütün məsələlərdə daim Türkiyənin yanında olduğu vurğulanıb.

2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi ilə yeni mərhələyə qədəm qoyan Azərbaycan-Türkiyə müttəfiqlik, dostluq və qardaşlıq münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində birgə addımların atılmasına hazırlıq ifadə olunub.

## Azərbaycan-Türkiyə diplomatik münasibətlərinin 30 illiyi münasibətilə xarici işlər nazirləri arasında təbrik məktubu mübadiləsi baş tutub

Azərbaycan-Türkiyə diplomatik əlaqələrinin qurulmasının 30 illiyi münasibətilə qardaş ölkələrimizin xarici işlər nazirləri arasında təbrik məktubu mübadiləsi baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov təbrik məktubunda qardaş ölkədən olan həmkarını diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə ürəkdən təbrik edib. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət kimi tarixə düşən qardaş Türkiyə ilə münasibətlərimizin ötən illərdə Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və xalqımızın Ulu Öndəri Heydər Əliyevin "Bir millət, iki dövlət" fikirlərinə uyğun şəkildə inkişaf etdiyi qeyd olunub. Ölkələrimiz arasında mövcud olan münasibətlərin bugünkü səviyyəsinin xalqlarımızın iradəsinə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq münasibətlərinə söykəndiyi vurğulanıb.

Nazir Ceyhun Bayramov Azərbaycan-Türkiyə əlaqələrinin özünün tarixi zirvəsini yaşadığını qeyd edib və ölkələrimiz arasında münasibətlərin strateji səviyyədən müttəfiqlik səviyyəsinə qədər yüksəlməsində həmkarı Mövlud Çavuşoğlunun da töhfəsinin olduğunu məmnunluqla qeyd edib.

Məktubda Vətən müharibəsi zamanı və sonrakı dövrdə qardaş Türkiyənin bütün səviyyələrdə ölkəmizin haqlı və ədalətli mövqeyini dəstəkləməsinin dövlətimizin başçısı və ümumilikdə, Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirildiyi vurğulanıb. Birgə həyata keçirdiyimiz irimiqyaslı regional və qlobal layihələrin ölkələrimiz arasında ticarət və iqtisadi əlaqələrin daha da genişlənməsinə, regional inkişafa töhfə verdiyi qeyd olunub. Əməkdaşlığımızın Türk Dövlətləri Təşkilatı çərçivəsində də uğurla davam etdiyi diqqətə çatdırılıb.

Azərbaycanın xarici işlər naziri ölkələrimiz arasındakı qardaşlıq və müttəfiqlik əlaqələrinin xalqlarımızın mənafeyinə uyğun olaraq daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Nazir Mövlud Çavuşoğlu da məktubunda azərbaycanlı həmkarını səmimiyyətlə təbrik edib. Türkiyə ilə Azərbaycan arasındakı 71 illik həsrətin 1992-ci il yanvarın 14-də imzalanmış protokol sənədləri ilə sona çatdığını və Türkiyə Respublikasının həmin gündən fəaliyyətə başlayan Bakıdakı səfirliyinin Azərbaycandakı ilk səfirlik olduğunu qeyd edib.

Mövlud Çavuşoğlu son 30 ildə sarsılmaz qardaşlıq əlaqələri üzərində qurulan həmrəyliyimizin iki dövlətin rəhbərlərinin yaxın dostluq münasibətlərinin verdiyi ilhamla daha da inkişaf etdiyini bildirib. Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə çatdırılan əlaqələrə hər iki qardaş ölkənin xarici işlər nazirləri tərəfindən birgə verilən töhfələrin qürur və sevinc mənbəyi olduğu ifadə edilib.

Nazir torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü bərpa edən, nail olduğu rifah səviyyəsi ilə regionun yüksələn ulduzuna çevrilən Can Azərbaycanın uğurlarının Türkiyə üçün hər zaman qürur və sevinc mənbəyi olduğunu vurğulayıb. Türkiyəli nazir təbrik məktubunda əlaqələrimizin bu günə qədər olduğu kimi, bundan sonra da daha yüksək səviyyəyə çatdırılmasında əzmli və qərarlı olduqlarını vurğulayıb.

Mövlud Çavuşoğlu ötən 30 ildə iki qardaş ölkə olaraq qazanılan uğurların gələcəyimizə istiqamət verəcəyini, qardaşlıq əlaqələrimizin regionumuzda və dünyada sülhün və sabitliyin bərqərar olmasında mühüm rol oynayacağına inam ifadə edib. O, diplomatik əlaqələrin bərpasının dövlətlərimizə və xalqlarımıza xeyirli olmasını və neçə belə yubileylərə çatmaq ümidi ilə dost və qardaş Azərbaycan xalqına rifah və xoş günlər arzu edib.

## Ankaranın Atakule qülləsi yenidən Azərbaycan bayrağının rənglərinə boyanıb



Azərbaycanla Türkiyə arasında diplomatik münasibətlərin bərpasının 30-cu ildönümü münasibətilə Ankaranın simvollarından biri olan Atakule qülləsi Azərbaycan bayrağının rənglərinə boyanıb.

AZƏRTAC xəbər verir ki, qüllənin üzərində Türkiyə və Azərbaycan bayraqları, həmçinin türk və ingilis dillərində "Türkiyə-Azərbaycan diplomatik münasibətlərinin 30 illiyi mübarək olsun!" sözləri yazılmış lövhə əks olunub.

Qeyd edək ki, Azərbaycana və qardaşlığımıza aid əlamətdar günlərdə həmrəylik nişanəsi olaraq Atakule qülləsinin Azərbaycan bayrağının rənglərinə boyanması ənənə halını alıb.

## Hərbi qulluqçuların psixoloji sahədə maarifləndirilməsi üzrə tədbirlər keçirilib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, nazirliyin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin psixoloqlarının Respublika Hərbi Prokurorluğunun və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri ilə birlikdə bölmələrdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin və sosial problemlərinin öyrənilməsinə, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə komandirlərə kömək göstərilməsinə dair tədbirlər keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər çərçivəsində hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, əsəbi-psixi vəziyyətlərinin qiymətləndirilməsi, hərbi xidməti təhlükəsizliyinin təmin edilməsi, şəxsi heyətin sağlamlığının qorunması, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, digər mövzularda söhbətlər aparılıb. Həmçinin bu istiqamətdə sosial-psixoloji testlər və fəaliyyətlərin səmərəliliyinin artırılması məqsədilə komandir-rəis heyəti ilə təlimat-metodiki məşğələlər keçirilib, tövsiyələr verilib.

## AHİK-də Türkiyənin ən böyük həmkarlar ittifaqı olan "Hak-İş" Konfederasiyasının nümayəndə heyəti ilə görüş



Yanvarın 14-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Türkiyənin ən böyük həmkarlar ittifaqı olan "Hak-İş" Konfederasiyasının nümayəndə heyəti ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, "Hak-İş" Konfederasiyasının sədri Mahmut Arslan və qurumun baş katibi Eda Günər və digərləri iştirak ediblər. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında mövcud olan qardaşlıq münasibətlərindən, həmçinin iki qurum arasındakı əlaqələrdən, əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərdən və perspektivlərdən danışılıb.

AHİK sədri bildirib ki, ölkələrimiz arasındakı münasibətlər qardaşlıq prinsipləri əsasında bütün sahələrdə möhkəm təməllər üzərində qurulub, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları xalqlarımızın milli-mənəvi dəyərlər müstəvisində birliyinin təminatçısıdır.

Onun sözlərinə görə, bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri məqsədyönlü siyasət sayəsində ölkələrimiz arasındakı münasibətlər daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Şuşa Bəyannaməsini tarixi hadisə adlandıran S.Möhbalıyev qeyd edib ki, bu sənəd ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi, ideoloji, humanitar sahələrdə davamlı inkişafını təmin edir, eyni zamanda müttəfiqliyin geostrateji əhəmiyyətini artırır.

Vətən müharibəsi dövründə Türkiyə dövlətinin və onun Prezidentinin Azərbaycana göstərdiyi mənəvi və siyasi dəstəyin önəmindən bəhs edən S.Möhbalıyev vurğulayıb ki, bu, sözün hər bir mənasında, təmənnasız qardaşlığın nümunəsi idi: "Azərbaycanla Türkiyəni sarsılmaz tellər bağlayır. Bu birliyi heç kim və heç bir qüvvə poza bilməz. Vətən müharibəsinin qazilərinin müalicəsinə yüksək səviyyədə kömək göstərilib. Türkiyə parlamenti də xalqımıza, dövlətimizə dəstəyini əsirgəməyib".

Azərbaycanın regionda yaratdığı reallıqdan danışan sədr Zəngəzur dəhlizinin Ermənistan da daxil olmaqla bütün region ölkələrinin inkişafına töhfə verəcəyini vurğulayıb.

"Hak-İş" Konfederasiyası tərəfindən şəhid ailələrinə və qazilərə, həmçinin Şərqi Zəngəzurun və Qarabağın bərpasına xərclənməsi üçün AHİK-in hesabına köçürülən 25 000 ABŞ dolları vəsaitə görə türkiyəli həmkarına təşəkkür edən AHİK sədri Azərbaycanda şəhid ailələrinin, qazilərin, veteranların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu və prosesdə ictimai təşkilatların da fəallığını diqqətə çatdırıb.

"Hak-İş" Konfederasiyasının sədri Mahmut Arslan Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbəni tarixi hadisə adlandırıb və bu münasibətlə azərbaycanlı həmkarlarını təbrik edib. Azərbaycanın haqq-ədalət uğrunda mübarizə apararaq qalib gəldiyini və bütün dünyaya öz gücünü göstərdiyini vurğulayan M.Arslan deyib: "Qarabağ müharibəsində qazanılan Zəfər bütün dünyaya verilən bir mesajdır. Otuz ilə yaxın işğalda olan torpaqların 44 günə azad edilməsi görünməmiş bir hadisədir. Təkcə Şuşa əməliyyatının özü dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Düşünürəm ki, bu, dünya tarixində yeni bir səhifənin açılması deməkdir. İllərlə sürən münaqişələr var ki, hələ də öz həllini tapmayıb. Azərbaycan xalqı özünün şərəfli və qürurlu dövrünü yaşayır".

Türkiyəli qonaq bildirib ki, Şərqi Zəngəzurun və Qarabağın işğaldan azad olunması hər birimizin arzusu idi və biz indi bu sevinci yaşayırıq. Bildirilib ki, Türkiyənin ictimai təşkilatı olaraq qardaş ölkənin ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən oğullarının ailələrinə, qazilərə dəstək olmağa çalışırıq. Göstərdiyimiz bu maddi yardım, təbii ki, simvolik xarakter daşıyır. Biz bununla demək istəyirik ki, hər zaman azərbaycanlı qardaşlarımızın yanındayıq və bunu özümüzə borc bilirik.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## Azərbaycanla Türkiyə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi münasibətilə fotosərgi keçirilib

Azərbaycanla Türkiyə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi münasibətilə yanvarın 14-də Xarici İşlər Nazirliyində fotosərgi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə qardaş ölkələrin Dövlət himnləri səsləndirilib.

Xarici işlər nazirinin müavini Xələf Xələfov sərginin açılışında çıxış edərək bildirib ki, Azərbaycanın müstəqilliyinin bərpasından dərhal sonra ilk diplomatik əlaqələr məhz Türkiyə ilə qurulub. Bu əlaqələr hər iki ölkə arasındakı münasibətləri yeni mərhələyə keçirib.

Diqqətə çatdırılıb ki, diplomatik münasibətlərimizin 30 illiyi münasibətilə xarici işlər nazirləri arasında qarşılıqlı olaraq təbrik məktubları göndərilib: "Türkiyə ən çətin dövrlərdə Azərbaycan ilə birlikdə olub. Ölkələrimiz arasındakı qardaşlıq münasibətləri bütün dünyaya örnəkdir. Bu gün Azərbaycan-Türkiyə münasibətləri yüksək səviyyədə inkişaf etməkdədir. Ulu öndərlər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarları qardaşlığımızın mənəvi-ideoloji əsasını təşkil edir".

Qeyd olunub ki, Azərbaycanın və Türkiyənin bu uğurlu müttəfiqliyi regionda müsbət dəyişikliklərin əsasını təşkil edir. Qardaş ölkələrimizin siyasi rəhbərləri hər iki xalqın istək, arzu və hədəflərinə xüsusi həssaslıq göstərirlər. Bu istiqamətdə həyata keçirilən siyasət ölkələrimizə fayda verməkdədir.

Nazir müavini çıxışında Türkiyənin 44 günlük Vətən müharibəsində Azərbaycana qardaşlıq dəstəyi göstərdiyini, hər zaman yanımızda olduğunu diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan bunu heç vaxt unutmayacaq. Vətən müharibəsində qazanılan şanlı Zəfər təkcə Azərbaycanın yox, bütün türk dünyasının Qələbəsidir. Müharibədən sonra regionda yeni reallıqlar yaranıb və bölgədə Türkiyənin mövcudluğu gücümüzə güc qatır. Tarixi Şuşa Bəyannaməsinin imzalanması müttəfiqliyimizi daha yüksək səviyyəyə qaldırıb.

Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı ölkəsinin tarixboyu azərbaycanlı qardaşlarına dəstək olmağa çalışdığını bildirib: "Çanaqqala döyüşündə azərbaycanlı qardaşlarımız bizə kömək edib, fədakarlıq göstəriblər. Nuru paşa da Azərbaycanın çətin anlarında qardaşlarımızın köməyinə gəlib. Vətən müharibəsi zamanı Türkiyə Azərbaycana həm mənəvi, həm də siyasi dəstəyini əsirgəmədi. Biz bütün sahələrdə, o cümlədən beynəlxalq platformalarda daim bir-birimizin yanındayıq. Şuşa Bəyannaməsinin imzalanması əlaqələrimizin zirvəsi oldu. Münasibətlərimizin inkişafı getdikcə dərinləşməkdədir. Biz birlikdə bir çox layihələrə imza atmışıq və bunu davam etdirəcəyik".

Çıxışlardan sonra tədbir iştirakçıları sərgidə nümayiş etdirilən tarixi sənədlərə və fotolara baxıblar.

## Prezident Kitabxanasında "Azərbaycan-Türkiyə əlaqələri" adlı elektron resurs istifadəyə verilib

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşlarının hazırladıqları "Azərbaycan-Türkiyə əlaqələri" adlı elektron resurs iki qardaş ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr edilib.




1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyinə qovuşduqdan sonra onu ilk tanıyan dövlət Türkiyə Cümhuriyyəti olmuşdur. 1992-ci il yanvarın 14-dən etibarən qurulan diplomatik əlaqələr hər iki ölkənin xalqlarının bir-birinə daha sıx bağlanmasına və dövlətlərin güclərini birləşdirilməsinə xidmət edib.

İki dövlət arasında münasibətlərin yüksək səviyyəyə çatdırılması Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə mümkün olmuşdur. Münasibətlərin "Bir millət, iki dövlət" prinsipi əsasında qurulması hər iki dövlətə qarşılıqlı fayda gətirmiş, birgə nəqliyyat və enerji layihələri həyata keçirilmişdir.

Bütün beynəlxalq platformalarda Azərbaycanla Türkiyə ortaq maraqlardan çıxış edərək bir-birlərini dəstəkləmişlər. Tərəflərdən birinə qarşı edilən ədalətsizliyə qarşı birgə mübarizə aparmışlar. Ermənistanın Azərbaycan ərazilərini işğalına qarşı mübarizədə Türkiyə hər zaman dövlətimizin yanında olmuş və təcavüzkara qarşı sanksiya tətbiq etmişdir.

2020-ci ilin payızında Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi uğrunda həyata keçirdiyi 44 günlük hərbi əməliyyatlar zamanı Türkiyənin göstərdiyi mənəvi-siyasi dəstəyin müstəsna əhəmiyyəti oldu.

Bu gün Azərbaycan Türkiyəyə ən çox sərmayə yatıran dövlətlər arasında ikinci yerdədir.

Prezident Kitabxanasının əməkdaşlarının hazırladıqları 5 fəsildən və 13 altbölmədən ibarət "Azərbaycan-Türkiyə əlaqələri" elektron resursu iki qardaş ölkə arasında münasibətlərin real mənzərəsini özündə əks etdirir.

Prezident Kitabxanasından AZƏRTAC-a bildirilib ki, elektron resursun "Tarixi arayış" bölməsində Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arşında münasibətlər təhlil edilib və bu münasibətlərin dinamik inkişafını özündə əks etdirən "Xronologiya" tərtib olunub.

Elektron resursun "Sənədlər" fəslində Azərbaycanla Türkiyə arasında xarici siyasətlə bağlı imzalanan 400-ə yaxın sənədin - saziş, müqavilə, memorandum, protokol, razılaşma, bəyannamə və sərəncamın tam mətnləri istifadəçilərə təqdim edilir.

"E-resurslar" fəslində Azərbaycan-Türkiyə münasibətlərinə dair müxtəlif dillərdə 50-ə yaxın kitabın, 200-ə yaxın seçmə məqalənin elektron versiyaları öz əksini tapır. Bu resursda həmçinin 100-dən çox kitabın, 1400-ə yaxın məqalənin və 35 avtoreferatın biblioqrafiyası toplanılıb.

"Fotoqalereya" bölməsi iki qardaş ölkənin son 30 ildə keçdiyi tarixi yolun fotoxronikasını özündə əks etdirir.

"Azərbaycan-Türkiyə əlaqələri" elektron resursu **https://azerturk.preslib.az/** subdomenində yerləşdirilib və müntəzəm olaraq yenilənilir.

Kitabxanada "Azərbaycan-Türkiyə. Bir millət, iki dövlət" adlı kitab sərgisi də oxuculara təqdim edilir.

## Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının iclası olub

Yanvarın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının iclası keçirilib.

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Veteranlar Şurasının sədri Arif Rəhimzadə iclasın gündəliyinə daxil olan məsələlər barədə məlumat verib. İclasda YAP Veteranlar Şurasının ötən il ərzindəki fəaliyyəti barədə hesabat məruzəsi dinlənilib.

Sonra Şuranın 2022-ci il üçün tədbirlər planı müzakirə olunub. Təkliflər və əlavələr nəzərə alınmaqla tədbirlər planının təsdiq olunması barədə qərar qəbul edilib.

## Ermənistan Azərbaycanı əsassız şəkildə ittiham etməkdənsə, günahlarını etiraf etsin

*"Ermənistan XİN-in, guya, Bakıda 1990-cı ilin yanvar ayında erməni əhalisinə qarşı qırğın törədilməsi ilə bağlı tamamilə əsassız və uydurma iddiası, Ermənistan tərəfinin Azərbaycanın dinc əhalisinə qarşı tarixən həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini gizlətmək məqsədini güdən propaqandadır".*

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan XİN-in "Bakıda ermənilərə qarşı qırğının" törədilməsi barədə bəyanatını şərh edərkən bildirib.

"Təəssüflə qeyd etməliyik ki, ermənilərin qurban şəklində təqdim edildiyi hekayələr onilliklər ərzində erməni millətçiliyinin ideoloji əsasını təşkil edib və elə bu da Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına təkan verib, Ermənistanla Azərbaycan arasında yüz minlərlə insanın böyük iztirablarına səbəb olan dağıdıcı münaqişəyə gətirib çıxarıb. Hazırda münaqişədən sonrakı dövlətlərarası münasibətlərin normallaşması məsələlərinin müzakirə mövzusu olduğu bir vaxtda Ermənistan XİN-in yenidən bu kimi əsassız və destruktiv bəyanatlarla çıxış etməsi qarşı tərəfin münasibətlərin normallaşmasına çalışmadığını, əksinə zərərli fikirlərlə öz cəmiyyətlərini zəhərlədiklərini göstərir. Bu isə təəssüf doğurduğu qədər təhlükəlidir.

Azərbaycanda ermənilərin "poqromları" adlandırılan uydurma iddiaya gəldikdə, istintaq materialları, eləcə də bir sıra beynəlxalq müstəqil qurumların təkzibedilməz müşahidələri sübut edir ki, əslində, bu, Azərbaycan xalqının müstəqilliyi və suverenliyi uğrunda artan mübarizə şəraitində sovet xüsusi xidmət orqanları tərəfindən hazırlanmış təxribatçı əməllər idi. Xatırladırıq ki, 1980-ci illərin sonlarından etibarən Ermənistanın Azərbaycana qarşı açıq ərazi iddiaları kütləvi qətl, işgəncə və təqib kampaniyası ilə, etnik azərbaycanlıların sistemli şəkildə hədəfə alınması nəticəsində 250 minə yaxın azərbaycanlının Ermənistan SSR-dəki tarixi yerlərindən zorla köçürülməsi ilə müşayiət edilib. Təəssüf ki, bu günədək Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilən bu və digər çoxsaylı cinayətlərə görə heç bir nəfər də məsuliyyətə cəlb edilməyib.

Məlum olduğu kimi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu dinc azərbaycanlılara qarşı qırğın törədib və bu cinayətə görə məsuliyyəti keçmiş sovet rəhbərliyi daşıyır. 1990-cı ilin yanvar hadisələri Azərbaycan xalqının müstəqillik əzmini qıra bilmədi və ölkəmiz dövlət müstəqilliyini bərpa etdi.

Ermənistan XİN-i Azərbaycanı əsassız şəkildə ittiham etməkdənsə, keçmiş prezidentlərinin şəxsən təsdiq etdiyi etnik təmizləmə siyasətini və 30 ilə yaxın davam edən işğalçı siyasəti çərçivəsində yüz minlərlə azərbaycanlının fundamental hüquqlarını onilliklər ərzində kobudcasına pozduqlarını etiraf etməlidir. Etiraf etməlidir ki, günahkar şəxslər məsuliyyətə cəlb edilsin, gələcəkdə bu kimi cinayətlər bir daha törədilməsin", - deyə L.Abdullayeva əlavə edib.

# Şeyxülislam Allahşükür Paşazadə Vatikanda bir sıra görüşlər keçirib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Müqəddəs Taxt-Tacın rəsmi dəvəti ilə Vatikanda səfərdədir. AZƏRTAC xəbər verir ki, yanvarın 13-də Şeyxülislam Allahşükür Paşazadə ilə Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin təkbətək görüşü olub.













Görüşdə Şeyxülislam Allahşükür Paşazadə Papa Fransiskə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın salamlarını, həmçinin bu yaxınlarda 85 yaşını qeyd edən Roma Papasına təbriklərini çatdırıb. Roma Katolik Kilsəsinin rəhbəri də öz növbəsində QMİ sədrindən onun salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya çatdırmağı xahiş edib.

Şeyxülislam Allahşükür Paşazadə Papa Fransiskin dünyada sülh və ümumbəşər qardaşlıq uğrunda apardığı ardıcıl fəaliyyətini yüksək dəyərləndirdiyini və onun fəaliyyətini yaxından rəğbətlə izlədiyini deyib. Qafqaz Müsəlmanları İdarəsinin sədri, öz növbəsində, bu ideyaların təbliğinə dəstək məqsədilə yaxından iştirak etdiyini və bundan sonra da öz töhfəsini verəcəyini qeyd edib. Xüsusilə bu yaxınlarda Papa Fransiskin Ukrayna və Cənubi Qafqazda yaranmış vəziyyətlə bağlı verdiyi bəyanatın Roma Katolik Kilsəsinin rəhbərinin sülh və əmin-amanlığa münasibətini bariz şəkildə nümayiş etdirdiyi və bunun rəğbətlə qarşılandığı bildirilib. QMİ sədri Roma Katolik Kilsəsinin rəhbərinin sülhə çağırışlarında balanslaşdırılmış mövqeyini təqdirəlayiq hal kimi qiymətləndirib.

Roma Papası Fransiskin 2016-cı ildə Bakıya səfərini xatırladan Qafqaz Müsəlmanları İdarəsinin sədri bu ziyarətin Azərbaycan rəhbərliyi və xalqında dərin izlər buraxdığını deyib. Səfər çərçivəsində Papa Fransiskin Heydər Məscidində ölkəmizdə fəaliyyət göstərən dini icmaların nümayəndələri ilə görüşü məmnunluqla xatırlanıb.

QMİ sədri erməni tərəfinin bəzi təhrif olunmuş məlumatlar yaydığını deyib, Azərbaycandakı real vəziyyətlə yerində tanış olmaq üçün Vatikandan nümayəndə heyətinin ölkəmizə səfər etməsini təklif edib. Qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 ilə yaxın işğalda olan torpaqlarımızı azad edib. İşğal zamanı istər müsəlmanlara məxsus, istərsə də digər dinlərə mənsub abidələrin erməni tərəfinin vandalizminə məruz qaldığı vurğulanıb. Şeyxülislam Allahşükür Paşazadə işğal zamanı erməni vandalizminə məruz qalan mədəni və dini abidələrlə bağlı faktları əks etdirən kitabı Papa Fransiskə təqdim edib.

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanla Vatikan arasında yüksəksəviyyəli əməkdaşlıqdan və dinlərarası əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə edib. Qeyd olunub ki, Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi müxtəlif layihələr dünya mədəni, tarixi və dini irsinin qorunması, mədəniyyətlər və dinlərarası əlaqələrin inkişafına xidmət edir.

Papa Fransisk ölkəmizə səfəri zamanı Azərbaycanda dinlərarası mühitin nə qədər ahəng içində olduğunun canlı şahidinə çevrildiyini deyib. Bildirib ki, müsəlmanlar, xristianlar və digər dinlərə mənsub xalqların Azərbaycanda birgə yaşaması təqdirəlayiq haldır.

Roma Papası ümumbəşəri ideyaların həyata keçirilməsində, sülhə nail olmaq üçün regionda lazımi və kifayət qədər resursların olduğuna inandığını qeyd edib.

Vurğulayıb ki, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr Müqəddəs Taxt-Tacda çox yüksək qiymətləndirilir. Bu işlər fondun ümumbəşəri dəyərlərə verdiyi töhfələri bütün dünyaya nümayiş etdirir.

Roma Papası Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında dialoqun yüksək səviyyədə olduğunu deyib.

Şeyxülislam Allahşükür Paşazadə Papa Fransiskə Prezident İlham Əliyevin Azərbaycanın müxtəlif milli və dini icmalarına münasibətdə həyata keçirdiyi siyasətdən, o cümlədən dini icmaların rəhbərləri ilə qarşılıqlı fəaliyyətindən danışıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri bu səfərin Müqəddəs Taxt-Tacla Azərbaycan arasında qarşılıqlı əlaqələrin genişlənməsi fonunda dinlərarası dialoq və əməkdaşlıq müstəvisində yeni imkan və perspektivlər açdığını qeyd edib.

Dinlərarası dialoq üzrə səmərəli əməkdaşlığa dair müzakirələr aparıldığı görüşdə qarşılıqlı birgə səylərin əhəmiyyəti vurğulanıb.

Görüşdə qarşılıqlı hədiyyələr təqdim olunub.

Sonra Papa Fransisk Azərbaycanın dini konfessiya rəhbərlərindən ibarət nümayəndə heyətinin üzvlərini qəbul edib. Qəbulda Azərbaycanın Fransada və Müqəddəs Taxt-Tacdakı səfiri Rəhman Mustafayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy (Nikonorov), Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti Yepiskop Vladimir Fekete və Qafqaz Müsəlmanları İdarəsinin sədrinin birinci müavini, müfti Salman Musayev iştirak ediblər.

Qeyd edək ki, uzun illərdir Qafqaz Müsəlmanları İdarəsi ilə Vatikanın dini-mənəvi əlaqələri uğurlu inkişaf yolu keçib. QMİ-nin dinlərarası dialoq və əməkdaşlığa dair beynəlxalq tədbirlərdə Vatikan rəsmiləri ilə uğurlu, səmərəli işbirliyi, əməli əməkdaşlıq təcrübəsi mövcuddur.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Vatikanın baş keşişi (vikari), Müqəddəs Pyotr Kilsəsinin rəhbəri kardinal Mauro Qambetti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, kardinal Mauro Qambetti QMİ sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini səmimi salamlayaraq Vatikan ilə Azərbaycan arasında yüksək əməkdaşlıq əlaqələrindən məmnunluğunu bildirib, bu əlaqələrin uğurla inkişaf etdiyini deyib.

Səmimi qəbula görə kardinal M.Qambettiyə təşəkkür edən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanın sivilizasiyalar və dinlər arasında münasibətlərin daha da inkişaf etdirilməsində xüsusi rol oynadığını bildirib.

QMİ sədri ölkəmizdə dini icmalar arasındakı tolerant münasibətlərdən söhbət açıb. Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda etnik və dini baxımdan qarşılıqlı anlaşmanın olduğunu, müxtəlif dinlərin nümayəndələrinin dinc şəraitdə birgə yaşadıqlarını qeyd edib. Vurğulayıb ki, ölkəmiz bütün dünyada dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın, qardaşlıq və həmrəylik hisslərinin bərqərar olmasına çalışır və bu baxımdan dünyaya nümunədir.

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Ordusunun Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə BMT qətnamələrinə uyğun olaraq 30 ilə yaxın müddət ərzində erməni işğalında olan torpaqlarını azad etdiyini, Ermənistan tərəfinin işğal dövründə buradakı dini və mədəni abidələri vandalizmə məruz qoyduğunu vurğulayıb, bununla bağlı kardinal M.Qambettiyə fotofakt kitabı təqdim edib.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əməkdaşlıq məsələləri müzakirə edildiyi görüşdə ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində fəaliyyətini fəal şəkildə davam etdirdiyi qeyd olunub.

Kardinal Mauro Qambetti Heydər Əliyev Fondu tərəfindən Vatikanda həyata keçirilən təmir-bərpa işlərinin əhəmiyyətini qeyd edib, Azərbaycan hökumətinə, xüsusilə də fondun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

O, dünyanın bir çox yerlərində gərginlik və münaqişələrin artdığı, bəzi dairələrin dini amildən istifadə edərək ədavəti və nifaqı daha da yaymağa çalışdığı bir vaxtda Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün bəşəriyyətə əsl tolerantlıq nümunəsi göstərməkdə olduğunu qeyd edib.

Görüşdə Azərbaycanın Fransada və Müqəddəs Taxt-Tacdakı səfiri Rəhman Mustafayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy (Nikonorov), Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti Yepiskop Vladimir Fekete, Qafqaz Müsəlmanları İdarəsinin sədrinin birinci müavini, müfti Salman Musayev iştirak ediblər.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının prezidenti, kardinal Migel Anhel Ayuso Giksot ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan ilə Müqəddəs Tax-Tac arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyindən, xüsusilə də Vatikanın Cənubi Qafqazdakı vəziyyətlə bağlı həmişə tarazlı mövqe tutduğundan məmnun olduğunu bildirib.

QMİ sədri deyib ki, müxtəlif dinlərin liderlərinin davamlı görüşləri qarşıda duran məsələlərin birgə həllinə mühüm töhfə verir. Bu fikri dəstəkləyən kardinal belə bir insani yaxınlaşmadan uzaq durmağa çalışanların hələ də mövcud olduğunu təəssüflə qeyd edib.

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanın tolerant ölkə olduğunu, burada müxtəlif dinlərə mənsub insanların sülh şəraitində yaşadığını deyib. QMİ sədri ölkədə ən böyük dini icmanın rəhbəri kimi digər dini icmalara daim diqqət göstərdiyini vurğulayaraq Azərbaycanda din-dövlət münasibətlərinin nümunəvi səviyyədə olduğunu, ölkə rəhbərliyinin bütün dinlərə eyni qayğı və diqqət göstərdiyini, bunun bütün dünya üçün uğur örnəyi olduğunu deyib.

Azərbaycan Ordusunun Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə BMT qətnamələrinə uyğun olaraq 30 ilə yaxın müddət ərzində erməni işğalında olan torpaqlarını azad etdikdən sonra burada erməni vandalizminə məruz qalaraq dağıdılmış bütün mədəniyyət və din abidələrinin ölkə rəhbərinin birbaşa tapşırığı ilə bərpa olunacağı diqqətə çatdırılıb.

Dinlərarası Dialoq üzrə Pontifik Şurasının prezidenti Migel Ayuso ölkəmizdəki tolerantlıq mühitini, Azərbaycanın İslam dini abidələri ilə yanaşı, digər dinlərə aid abidələrini də qoruyub saxlamasını, həmçinin bərpa etməsini Vatikanın yüksək təqdir etdiyini qeyd edib. O, Heydər Əliyev Fondunun Vatikanın mədəni və dini irsinin qorunub saxlanması istiqamətində həyata keçirdiyi layihələrin əhəmiyyətini xüsusilə vurğulayıb, Azərbaycanın mədəniyyətlər və dinlər arasında dialoqa mühüm töhfələr verdiyini deyib.

QMİ sədri kardinal Migel Ayusonu Azərbaycan həqiqətlərinin bilavasitə şahidi olmaq üçün ölkəmizə dəvət edib.

Görüşdə Azərbaycanın Fransada və Müqəddəs Taxt-Tacdakı səfiri Rəhman Mustafayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy (Nikonorov), Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti Yepiskop Vladimir Fekete və Qafqaz Müsəlmanları İdarəsinin sədrinin birinci müavini, müfti Salman Musayev iştirak ediblər.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Heydər Əliyev Fondunun iştirakı ilə Vatikanda və Romada bərpa olunan abidələri ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Şeyxülislam Allahşükür Paşazadə Müqəddəs Pyotr bazilikası və burada dünyaşöhrətli italyan heykəltaraş Mikelancelonun bərpa edilən əsəri ilə tanış olub.

Müqəddəs Pyotr bazilikası italyan intibah memarlığının ən məşhur nümunələrindən və dünyanın ən böyük kilsələrindən biridir. Kilsədə ilk Roma Papası hesab edilən Müqəddəs Pyotr dəfn olunub. Bura həm də məşhur ziyarətgah və dini mərasimlər yeridir. Buna görə də erkən xristianlıq dövründən etibarən əksər Roma papaları burada dəfn olunub.

Nümayəndə heyəti Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bərpa edilən “Roma Papası I Leon və Hun imperatoru Atillanın görüşü” barelyefinə baxış keçirib.

2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, “Roma Papası I Leon və Hun imperatoru Atillanın görüşü” barelyefinin restavrasiya işləri 2020-ci ildə yekunlaşıb. Bu, Heydər Əliyev Fondunun dünya mədəni, tarixi və dini irsinin qorunması, mədəniyyətlər və dinlərarası əlaqələrin inkişafına önəmli töhfə verən layihələrindən biridir.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr müqəddəs Taxt-Tacda çox yüksək qiymətləndirilir. Həmin layihələr ölkəmizin ümumbəşəri əhəmiyyətə malik dini-mədəni abidələrə verdiyi önəmi göstərir. Bütün bunlar isə multikultural dəyərlərə sadiq və bu dəyərləri təşviq edən ölkə kimi Azərbaycanın dünyadakı mövqeyini və yerini, həmçinin dinlərarası dialoqun qurulmasındakı rolunu möhkəmləndirir.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri Romada Müqəddəs Sebastian katakombasının Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılmış yeni muzeyi və restavrasiya edilmiş sarkofaqlarla tanış olub.

Məlumat verilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Sebastian katakombalarının bərpası işlərinə 2016-cı ildə başlanılıb. 2018-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva katakombaların açılışı mərasimində iştirak edib.

Hazırda muzeydə Heydər Əliyev Fondunun dəstəyi ilə restavrasiya olunmuş 150 sarkofaq və ya onların fraqmentlərindən ibarət eksponatlar nümayiş etdirilir. Eramızın III əsrində həlak olmuş romalı sərkərdə Sebastianın adı ilə adlandırılan Müqəddəs Sebastian sərdabələri dördmərtəbəli məzarlıqda yerləşir. IX əsrədək katakombalar bu məzarlıqda saxlanılıb, daha sonra Müqəddəs Sebastian kilsəsinə daşınıb və hazırda orada mühafizə olunur.

## Tarif (qiymət) Şurasının növbəti iclası olub

Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. AZƏRTAC quruma istinadla xəbər verir ki, Tarif (qiymət) Şurasının yanvarın 13-də keçirilən növbəti iclasında aidiyyəti qurumların müraciətlərinə baxılıb və müvafiq qərarlar qəbul edilib.

Belə ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi şuraya müraciət edərək, universal poçt rabitəsi xidmətləri üzrə mövcud tariflərin 2011-ci ilin yanvar ayında təsdiq edildiyini, tariflərin təsdiqindən ötən müddət ərzində “Azərpoçt” MMC-nin ümumi istismar xərclərinin, o cümlədən poçtun daşınma xərclərinin (yanacağın qiymətinin, beynəlxalq daşımalarda valyuta ilə ödənilən xərclərin) artması nəticəsində xidmətlərin maya dəyərinin yüksəldiyini və fəaliyyətin iqtisadi baxımdan səmərəsiz olduğunu bildirib. Müraciətdə, həmçinin qeyd edilir ki, universal poçt rabitəsi xidmətləri üzrə yaranan zərərin bağlanması, göndərişlərin çəki və formatının Ümumdünya Poçt İttifaqının tələblərinə uyğunlaşdırılması, xidmət səviyyəsinin yüksəldilməsi üçün tariflərin artırılmasına zərurət yaranıb. Təklif olunan tariflər digər poçt operatorlarının tarifi ilə müqayisədə aşağı olmaqla yanaşı, xidmətlə bağlı xərcləri qarşılayacaq.

İclasda universal poçt rabitəsi xidmətləri üzrə təkliflər məqsədəuyğun hesab edilib və müvafiq qərar qəbul olunub.

Tarif (qiymət) Şurası üzvlərinin yekdil qərarı ilə universal poçt rabitəsi xidmətindən istifadə tarifləri təsdiq edilib.

Universal poçt rabitəsi xidmətləri üzrə əvvəlki və yeni tariflərin müqayisəli cədvəli ilə tanış olmaq olar.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi müraciətində təhlükəli tibbi tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi xidməti üzrə son tarif tənzimlənməsinin 2014-cü il avqustun 1-də həyata keçirildiyi, mövcud tarifin xərcləri ödəmədiyi və potensial sahibkarların bu sahəyə investisiya yatırmasına və keyfiyyətli xidmətin göstərilməsinə çətinliklər yaratdığı qeyd edilir. Bu sahədə effektiv idarəetmənin təmin olunması üçün Tarif (qiymət) Şurasının qərarı ilə tibbi tullantılar üzrə tarif də digər təhlükəli tullantılar üzrə tarifə uyğunlaşdırılaraq, 80 manat/kubmetr səviyyəsində müəyyənləşdirilib.

Tarif dəyişikliyi nəticəsində subyektlərin dövlət büdcəsindən asılılığı azalacaq, büdcədə sərbəstləşən vəsait ölkədə həyata keçirilən sistemli və davamlı xarakter daşıyan sosialyönümlü tədbirlərə yönəldiləcək.

Qərarlar yanvarın 17-dən qüvvəyə minir.

Tarif (qiymət) Şurasının, iclasında həmçinin yeni dövlət qeydiyyatına alınan 168 dərman vasitəsinin qiyməti də təsdiq edilib.

Qeyd edək ki, ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, qablaşdırma miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla indiyədək topdan və pərakəndə satış qiymətləri və qüvvəyə minmə tarixi təsdiq olunan 13 min 32 dərman vasitəsinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (**www.tariff.gov.az**) “Dərman vasitələri” bölməsində (**http://tariff.gov.az/documents/DVA.pdf**) yerləşdirilib.

Qərarlarla Tarif (qiymət) Şurasının rəsmi saytının (**www.tariff.gov.az**) “Şuranın qərarları” bölməsində tanış olmaq olar.

## Ötən il DSMF-yə sosial sığorta daxilolmaları 290,2 milyon manat artıb




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri keçən il 429 milyon manat və ya 9 faiz artaraq 5178 milyon manat təşkil edib.

Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sosial sığorta daxilolmaları ötən il 3843,4 milyon manat olub ki, bu da əvvəlki ilə nisbətən 290,2 milyon manat və ya 8 faiz çoxdur.

Sosial sığorta daxilolmaları ilə bağlı illik proqnoz büdcə təşkilatları üzrə 104 faiz, qeyri-büdcə sektoru üzrə 113 faiz icra edilib.

DSMF-nin 2021-ci ildəki xərcləri əvvəlki ilə nisbətən 132 milyon manat və ya 3 faiz çox olmaqla, 4843 milyon manat təşkil edib.

## Naxçıvanda iqtisadi fəaliyyətin müxtəlif sahələrində 61 layihə reallaşdırılır

Muxtar respublikada hazırda iqtisadi fəaliyyətin müxtəlif sahələrində 61 layihə reallaşdırılır. Bu layihələr arasında Şərur Sənaye Məhəlləsi, yeni duz istehsalı, həmçinin enerji içkiləri iri sənaye müəssisələri də var.



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həyata keçirilən iqtisadi tədbirlərin nəticəsində bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur. 350 növdə məhsula tələbat isə yerli istehsal hesabına ödənilir ki, bu da yerli istehsalın xüsusi çəkisinin artması hesabına olub.



# Quruculu rəhbər, qlobal lider, müzəffər komandan

## Təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, onu dərhal məhv edəcəyik

Müharibə dövründə biz çoxlu sayda döyüş sursatından istifadə etmişik, indi biz onları bərpa etməliyik və bağlanmış yeni kontraktlar bizim üçün bunu təmin edir. Artıq silah və sursat tədarükü gedir. Növbəti məqam - müxtəlif xarakterli müasir silah sistemlərinin alınmasıdır. Biz bu məsələyə həmişə böyük əhəmiyyət vermişik. Ona görə ki, hərbi texnologiya inkişaf edir və biz həmişə ən yaxşı texnologiyaları almaq istəyirik. Bizə silah satmaq istəyənlərin sayı baxımından problemimiz yoxdur.

İkinci Qarabağ müharibəsi Böyük Qələbə ilə yanaşı, həm də əməliyyatlar aparılması sahəsində böyük təcrübə deməkdir. Bu, Silahlı Qüvvələrin təlim şəraitində deyil, əməli işdə yoxlanmasıdır və bizim Silahlı Qüvvələr bu yoxlamadan şərəflə çıxdılar. Bununla belə, İkinci Qarabağ müharibəsi bizim bundan sonra nə etməli olduğumuzu, hərbi infrastrukturun hansı elementlərinin bizim tərəfimizdən ya istifadə edilməməsini, ya çox məhdud formatda istifadə edilməsini, ya da onların zəif olmasını göstərdi. Bu da böyük təcrübədir. Lakin indi dediklərimdən artığını məlum səbəblərə görə deyə bilmərəm. Komando Qüvvələrinin yaradılması bizim hərbi potensialı təkmilləşdirmə elementlərindən yalnız biridir və lakin çox vacib elementdir. Bu proses başlanıb və davam etdiriləcək.

Bir ildən, iki ildən, beş ildən sonra nə olacağını bilmirik. Bu gün Ermənistan ordusu tamamilə bərbad vəziyyətdədir və İkinci Qarabağ müharibəsi dövründə olduğundan daha artıq dərəcədə bizə müqavimət göstərməyə qabil deyil. Biz Ermənistanda həm öz qüvvələri, həm də onların tərəfdaşlarının köməyi ilə bütün hərbi quruculuq cəhdlərini çox diqqətlə izləyirik. Buna görə mən səmimi və açıq demişəm ki, əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir.

Bizim gördüyümüz tədbirlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri İkinci Qarabağ müharibəsi dövründə nümayiş etdirildiyindən daha güclü olacaq. İndi mənim hərəkətlərim, o cümlədən hərbi quruculuq çərçivəsində hərəkətlərim reallıqlardan kənara çıxmamağa yönəlib. Biz nə lazımdırsa onu etmişik, ləyaqətlə, şərəflə, ədalətlə etmişik və gələcək haqqında, Azərbaycan Silahlı Qüvvələrinin xalqımızı və dövlətimizi bütün mümkün təhlükələrdən qoruya bilməsi barədə düşünməliyik.

***İlham ƏLİYEV***



# Bu günə və gələcəyə strateji baxış

*Əvvəli 1-ci səh.*

Eyni zamanda qeyri-neft sənayesində 20 faizə yaxın artım var. "Hesab edirəm ki, bu, dünya miqyasında bəlkə də ən yüksək göstəricidir. Çünki biz neft amilini kənara qoysaq, real iqtisadi və sənaye artımı məhz bu rəqəmdə özünü əks etdirir", - dedi Prezident İlham Əliyev.

Dövlət rəhbərimiz xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrində, eləcə də ölkəmizin digər yerlərində tam icra edilən investisiya proqramına rəğmən Azərbaycanın valyuta ehtiyatlarının da 2,5 milyard dollar artdığını qeyd etdi. Onun sözlərinə görə, Azərbaycan nadir ölkələrdəndir ki, xarici ticarət balansının saldosu müsbətdir. İlin yekunlarına görə, ixrac idxalı böyük dərəcədə üstələyib. Müsbət saldo 10 milyard dollardan çoxdur. Bunun isə, ilk növbədə, manatın sabit qalmasına böyük təsiri var. Azərbaycanın builki büdcəsi isə tarixində ən böyük büdcəsidir. Belə ki, büdcə xərcləri təxminən 30 milyard manata çatacaq. Təkcə vergi orqanları keçən il proqnozdan əlavə təqribən 1,4 milyard manat vəsait yığa biliblər. Ümumilikdə, ölkədə gedən saflaşma və şəffaflıq siyasətinin xoş nəticələri bütün sahələrdə özünü göstərir.

### İnsan amili aparılan siyasətin mərkəzindədir

Azərbaycan Prezidenti onu da vurğuladı ki, aparılan siyasətin təməlində insan amili olduğu üçün daim sosial sahəyə xüsusi diqqət göstərilir. Həm maaşların, pensiyaların, təqaüdlərin qaldırılması, həm də sosial obyektlərin yaradılması, şəhid ailələrinə, keçmiş məcburi köçkünlərə diqqətin göstərilməsi kimi sosial paket iqtisadi islahatların uğurla həyata keçirilməsinə imkan verir.

Dövlət rəhbərimiz son günlər çörəyin bahalaşması ilə bağlı məsələyə də aydınlıq gətirdi. Bunu, buğdanı ən ucuz qiymətə təklif edən tərəf kimi Azərbaycanın əsas buğda təchizatçılarından olan Rusiyada həm qiymətlərin, həm ixrac rüsumlarının artması ilə əsaslandırdı. Eyni zamanda ölkəmizdə çox geniş sosial paketin həyata keçirildiyini xatırladaraq minimum əməkhaqqının 20 faiz, minimum pensiyanın 20 faiz artırılmasına, təqaüd və sosial müavinətlərdə də artımın baş verməsinə diqqəti yönəltdi. Bütövlükdə dövlətə 1,5 milyard manat vəsait hesabına başa gələn bu artımların əhatə dairəsi 2 milyondan çox insana aiddir. Bu baxımdan artan maaşlar çörəyin qiymətinin qalxmasının təzminatı kimi qiymətləndirilə bilər. Ölkə Prezidenti bu suala cavab olaraq dedi: "Azərbaycan xalqı əmin ola bilər ki, imkan daxilində, imkan yarandıqca biz əlavə yığılmış vəsaiti, ilk növbədə, sosial məsələlərə yönəldəcəyik. Necə ki, mən qeyd etdiyim kimi, vergi orqanları proqnozdan 1,4 milyard manat vəsait artıq toplayıblar, 1,5 milyard manatlıq sosial paket dərhal təmin edildi. Yəni əlavə yığılmış bütün vəsait yalnız sosial layihələrə istiqamətləndirildi və bu, bir daha bizim sosial sahəyə nə qədər böyük önəm verdiyimizdən xəbər verir".

Prezident İlham Əliyev müsahibəsində ölkəmizin ərzaq təhlükəsizliyi ilə bağlı ortaya çıxan bir sıra suallara da aydınlıq gətirdi. Həyata keçirilən uğurlu tədbirlərdən danışdı. Eyni zamanda sosial siyasət çərçivəsində şəhid ailələrinə, müharibə əlillərinə, qazilərə dövlətimizin diqqət və qayğısından bəhs olundu. Qeyd edildi ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi buna bariz nümunədir.

### Tarixin ən genişmiqyaslı bərpa-quruculuq proqramı

Azərbaycan Prezidenti Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra hazırda işğaldan azad yurdlarımızda aparılan bərpa-quruculuq işləri barədə də geniş məlumat verdi. Qeyd etdi ki, müharibədən çıxmış ölkələrin təcrübəsinə nəzər saldıqda Azərbaycanın apardığı bu tədbirlər ən genişmiqyaslı proqramdır. Bu proqramın əsas özəlliyi isə ondadır ki, Azərbaycan heç kimdən yardım istəmədən və almadan öz vəsaiti hesabına bərpa-quruculuq işlərini həyata keçirir. Ərazi minalardan təmizlənir, infrastruktur qurulur, o cümlədən elektrik xətləri, yollar çəkilir. Bütün bunlar ən çətin relyef xüsusiyyətlərinə malik ərazilərdə də uğurla aparılır. Baş planı hazır olan şəhərlərin - Şuşa və Ağdamın minalardan təmizlənməsi prosesi xüsusilə sürətli gedir. Digər şəhərlərin baş planlarının hazırlanması ilə bağlı da müvafiq şirkətlərlə sazişlər imzalanıb. "Biz istəyirik ki, hər şey əsaslı olsun. Həm tez edək, eyni zamanda tələskənliyə yol verməyək. Çünki hər şey əsaslı olmalıdır və ora qayıdacaq insanlar ən yaxşı şəraitlə təmin edilməlidir".

Bu gün Göygöldən Kəlbəcərə uzunluğu 11 kilometrdən çox olan tunel çəkilir. Kəlbəcər ilə Laçın arasında 4 kilometr uzunluğu olan ikinci tunel inşa edilir. Bərdə-Ağdam avtomobil yolu salınır. Naftalan Talış və Suqovuşanla birləşdirilir. Artıq Bərdə-Ağdam dəmir yolunun inşasına başlanılıb. Bundan başqa, Horadiz-Ağbənd-Zəngəzur dəhlizinin bir parçası olan dəmir yolunun çəkilişinə start verilib.

Tarixi abidələrin bərpası ilə də bağlı quruculuq işləri sürətlə davam etdirilir. Ağdam, Zəngilan, Hadrut, Daşaltı məscidlərinin təməli qoyulub. Məktəblər, xəstəxanalar tikilir, muzeylər bərpa edilir. Şuşada artıq yaşayış komplekslərinin inşasına start verilib. Ağalı kəndinin istifadəsi nəzərdə tutulub. Bütün bunlar həm maliyyə tutumu, həm də məsuliyyət baxımından genişmiqyaslı işlərdir.

### Ermənistan təxribatlarına görə cavab tədbirlərindən ibrət dərsi almalıdır

Müsahibənin mühüm bir hissəsi də həm yerli, həm beynəlxalq ictimaiyyəti maraqlandıran əsas məsələlərdən birinə - Vətən müharibəsindən sonra regionda yaranmış yeni tarixi reallıqlara həsr olundu. Bu mövzu Azərbaycan Prezidentinin 2021-ci ildəki müsahibələrinin də başlıca istiqamətini təşkil edirdi. Vətən müharibəsinin nəticələrinin beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmasında həmin müsahibələrin, cənab İlham Əliyevin Azərbaycanın haqlı mövqeyi ilə bağlı gətirdiyi arqumentlərin, irəli sürdüyü təkliflərin, regionun gələcəyinə aydın baxışının çox böyük rolu var.

Prezident İlham Əliyev müsahibəsində, ilk növbədə, Ermənistanın sərhəd bölgəsində Azərbaycan hərbi qulluqçularına qarşı növbəti hərbi təxribatına münasibət bildirdi. Bunun müharibədən sonra baş verən birinci hadisə olmadığını xatırlatdı. Azərbaycanın bundan əvvəlki bütün cavab tədbirlərindən Ermənistanın hələ də ibrət dərsi ala bilmədiyini təəssüflə qeyd etdi: "Azərbaycan Silahlı Qüvvələri cinayətkarları cəzalandırmaq üçün qəti tədbirlər görüblər və bu gün müdafiə nazirindən aldığım məlumata görə, düşmən tərəfin 6-8 hərbi qulluqçusu məhv edilib, çoxları yaralanıb. Bu hadisədən bir qədər sonra erməni tərəfi təkidlə atəşin dayandırılmasını xahiş etməyə başladı. Lakin onlar başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq. Erməni tərəfin çoxsaylı xahişlərinə, mən deyərdim, yalvarışlarına, bu hadisənin rusiyalı sülhməramlıların məsuliyyət zonasında deyil, Kəlbəcər istiqamətində baş verməsinə, rusiyalı sülhməramlıların da xahişlərinə baxmayaraq, saat 21:30-da mən müdafiə nazirinə komanda verdim ki, atəş dayandırılsın və erməni tərəfin çoxsaylı yaralılarını götürməsinə imkan verilsin. Yəni istər bu hadisə, istərsə də əvvəl baş vermiş hadisələr bu şəkildə sona çatıb - cinayətlər, təxribat, gizlincə törədilən alçaq təxribatlar, Azərbaycan tərəfin cəza tədbirləri, sonra da atəşin dayandırılması barədə yalvarışlar. Nəticədə Azərbaycan yenə humanizm nümayiş etdirdi, lakin yalnız bizim fikrimizcə cəza əməliyyatının başa çatdırılmalı olması qənaətinə gələndən sonra".

Azərbaycanın ordu quruculuğu istiqamətində atdığı növbəti addımlardan, o cümlədən Komando Qüvvələrinin yaradılmasından danışan Ali Baş Komandan bəyan etdi ki, əgər Ermənistandan bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görünsə, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. "Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir".

Ermənistanın həm mövcud hakimiyyəti, həm də müxalifət qrupları arasında özünü göstərən müəyyən revanşist meyillərə münasibət bildirərkən dövlət rəhbərimiz dedi ki, biz hansı qonşu ilə qonşuluqda yaşadığımızı unutmamalıyıq. Sərhəddə törədilmiş təxribatlar da Azərbaycanı yenə sınağa çəkmək istəyindən qaynaqlanır.

### "Bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq"

Azərbaycan işğaldan azad edilmiş ərazilərini yenidən qurur, abadlaşdırır. Regiondan dünyaya yeni qapılar açır. Hamını sülhü qorumaqdan ötrü çalışmağa, yeni inkişaf imkanları kəşf etməyə, tərəqqiyə mane olan əngəlləri ortadan götürməyə dəvət edir. İndiyədək heç bir dövlət müharibələrdən, münaqişələrdən səmərə görməyib. Bu günə qədər nail olduğu inkişaf səviyyəsini isə bütün bəşəriyyət sülhə xidmət edən, iqtisadi yüksəlişdən hamının faydalanması üçün geniş imkanlar yaradan, investisiyalara, mütərəqqi təşəbbüslərə, dirçəlişə yol açan dühalı liderlərə borcludur. Azərbaycan Prezidenti İlham Əliyev bu gün beynəlxalq siyasi arenada belə bir tarixi missiyanı hünərlə, qətiyyətlə yerinə yetirir.

Dünya onun simasında öz məqsədlərini dəqiq müəyyənləşdirən, keçmişin təcrübəsinə əsasən bu günü və gələcəyi doğru proqnozlaşdıran, irəli sürdüyü qlobal təşəbbüslərin effektivliyini, faydalarını zaman-zaman sübuta yetirən kamil bir lideri, qətiyyətli dövlət rəhbərini görür. Cənab İlham Əliyevin irəli sürdüyü hər təklifin, verdiyi hər bəyanatın arxasında real icra mexanizmləri, aydın, dəqiq gözləntilər durur. Əgər Azərbaycanın yaratdığı reallıqlar düzgün dəyərləndirilərsə, bütün qonşu ölkələr bu reallıqlardan bəhrələnmək üçün imkanları birləşdirərlərsə, sülhün, sabitliyin davamlı inkişafı üçün çalışarlarsa, o zaman bu region yaxın illərdə dünyanın ən gözəl məkanına çevriləcək.

Bu baxımdan Prezident İlham Əliyev suallara cavab olaraq onu da bildirdi ki, Azərbaycan sülh gündəliyini Ermənistana təklif edib. Burada sərhədlərin delimitasiyası, əgər bu baş tutarsa, ondan sonra demarkasiya prosesləri ilə bağlı çox aydın təkliflər var. Azərbaycan Prezidenti dedi: "Bildiyiniz kimi, ilkin mərhələdə Ermənistan cavab vermirdi, nə hə, nə yox deyirdi. Yəni bu, bir daha onu göstərir ki, Ermənistan rəhbərliyində gələcəklə bağlı açıq-aydın təsəvvür yoxdur. Bizim siyasətimiz isə tam aydındır - istər müharibə ilə bağlı, istər keçmiş Qarabağ münaqişəsinin baş vermiş həlli ilə bağlı, istər gələcəklə bağlı. Biz təklif etmişik ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanısın, sərhədlərin delimitasiyası ilə bağlı işlərə start verilsin, kommunikasiyaların açılması prosesinə start verilsin və sülh müqaviləsi imzalansın".

Azərbaycan Prezidenti qeyd etdi ki, sülh müqaviləsinin imzalanması 100 faiz qarantiya olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir. Bununla belə istənilən sülh müqaviləsinin Ermənistan üçün, sadəcə, kağız parçası ola bilməsi ehtimalı da unudulmamalıdır. Bütün hallarda Azərbaycan öz hərbi gücünü daim artıracaq. Ermənistan tərəfinin tərəddüdləri isə dövlət rəhbərimizin fikrincə, rəsmi dairələrin bu məsələ ilə bağlı öz fikirlərini hələ formalaşdıra bilməmələri ilə bağlıdır. Bir tərəfdən, onlar başa düşürlər ki, sülh müqaviləsi olmasa və güclü Azərbaycan mövcud olduğu halda onların müəyyən narahatlığı yarana bilər. Digər tərəfdən anlayırlar ki, sülh müqaviləsi imzalanarsa, orada mütləq hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması müddəası olmalıdır. "Ancaq seçim etməlidirlər, düzgün seçim etməlidirlər. Mən demişəm, bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq", - deyə Prezident İlham Əliyev vurğuladı. "Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var, nəinki onların bizim ərazi bütövlüyümüzü tanımaması üçün. Çünki hər kəs artıq bunu yaxşı bilir, dünya ictimaiyyəti də bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur bizdən ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi. Yəni bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün, necə deyərlər, bir çox amillərimiz var". Azərbaycan heç nə itirməyəcək.

Ermənistan Azərbaycanın sülh gündəliyinə hələlik hər hansı cavab vermədiyindən Prezident İlham Əliyev sülh sazişi və ölkələrin bir-birinin ərazilərini tanıma məsələsinin perspektivini görmədiyini qeyd etdi. Lakin bununla belə, kommunikasiyanın açılması ilə bağlı artıq razılığın olduğunu diqqətə çatdırdı: "...Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasındakı avtomobil yolunun çəkilişinə də razılıq verib. Yəni mən demək istəmirəm ki, biz onları məcbur etmişik, biz heç bir zor tətbiq etməmişik. Ola bilər ki, bizim, necə deyərlər, siyasi addımlarımız, diplomatik addımlarımız, eyni zamanda bölgədə gedən proseslər göstərir ki, bunu artıq təkcə Azərbaycan yox, bir çox region ölkələri istəyir".

### Həmişə qaliblərin dostları çox olur

Azərbaycan Prezidenti xüsusi vurğuladı ki, müharibənin başa çatmasından bir il keçəndən sonra beynəlxalq birliyin reaksiyası onu qane edir. Bu isə təbii ki, ölkəmizin apardığı ardıcıl siyasət sayəsində baş verib. Azərbaycan öz konstitusion hüquqları, o cümlədən BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yeni reallıq yaradıb və hamı bu reallıqla hesablaşmalıdır. O qədər də asan başa gəlməyən, böyük zəhmət tələb edən işlər hesabına bu gün beynəlxalq təşkilatlar - BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bu reallıqları tamamilə qəbul ediblər. "Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük. Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük". Azərbaycan Prezidenti onu da bildirdi ki, İkinci Qarabağ müharibəsi təkcə ərazilərin azad edilməsi, təkcə milli ruhun oyanması və ləyaqət hissinin qaytarılması demək deyil, bu, çox böyük multiplikativ, müsbət effektdir və daim müsbət təsir göstərəcəkdir.

### Əcdadlarımızın yolu ilə getməliyik

Azərbaycan Prezidentinin müsahibəsindəki ən maraqlı məqamlardan biri də Zəngəzur dəhlizinin açılması perspektivi ilə bağlı səsləndirdiyi fikirlər və Zəngəzurla əlaqədar şəxsi tarixçəsi ilə bağlı oldu. Bu barədə sualında jurnalist Azərbaycan Prezidentinin Naxçıvana səfəri zamanı öz əcdadlarını ziyarət etdiyini xatırlatdı və soruşdu ki, Şuşa azad olunan gün Azərbaycan Prezidentinin Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməsini bunun davamı hesab edə bilərikmi?

Cənab İlham Əliyevin bu suala cavabı belə oldu: "Bəli, belədir. Mən təşəkkür edirəm ki, siz bunu belə qəbul etdiniz, bəli. Məhz bu idi mənim ürəyimdə olan fikirlərim və ürəyimdə olanları mən hələ ki, deməyəcəyəm. Amma babamın məzarını ziyarət etməklə, eyni zamanda ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir". Azərbaycan Prezidenti vurğuladı ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. "Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən, hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm".

Azərbaycan Prezidenti bu müsahibəsi ilə bugünkü nailiyyətlərimizdən başlanan xoş bir gələcəyin üfüqlərini göstərdi, hər kəsin hüzur içində, qarşılıqlı hörmət ruhunda yaşayacağı parlaq gələcəyi. Bu yeniliklərlə Azərbaycan özünü növbəti inkişaf mərhələlərinə hazırlayır. Zamanla birgə özü də dəyişib inkişaf edir. Milli hədəflərimizə doğru böyük yolumuza davam edirik...

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanı qüdrətli və güclü edən həm də işıqlı ölkə olmasıdır

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bu il yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verib. Müsahibədə ötən il əldə edilən iqtisadi uğurlar, əhalinin rifah halının yaxşılaşdırılması üçün sosial sahədə görülən işlərdən geniş bəhs olunub. Bununla yanaşı, jurnalistlərin Azərbaycanla Ermənistan arasındakı münasibətlərlə, işğaldan azad edilən ərazilərdə görülən işlərlə, həmçinin ölkəmizin xarici siyasəti və beynəlxalq aləmdə baş verən hadisələrlə bağlı sualları cavablandırıb.

Dövlət başçısı işğaldan azad edilən ərazilərdə aparılan infrastruktur layihələri barədə danışarkən enerji sahəsində görülən işləri xüsusilə qeyd edib. Bildirib ki, işğal başa çatdıqdan dərhal sonra bu ərazilərdə enerji infrastrukturunu bərpa etmək üçün yarımstansiyaların tikintisinə başlanıldı, dağıdılmış su-elektrik stansiyaları yenidən qurularaq istismara verildi. Beləliklə, qısa bir zamanda bölgədə xidmət aparan hərbçilər və burada quruculuq-bərpa işlərində çalışan işçilər elektrik enerjisi ilə təmin edildi.

Dövlət başçısı işğaldan azad olunan ərazilərdə görülən işlərin miqyasının böyük olduğunu bildirərək demişdir: "İndi alınan güclər və su elektrik stansiyalarında istehsal edilən güclər ümumi şəbəkəyə daxil edilir. Beləliklə, bu, bizə imkan verir ki, böhranlı vəziyyət yaranmasın. Bu da çox böyük və çətin bir iş idi. Təsəvvür edin, bir ildə 7 yarımstansiya, özü də o yerdə ki, yaşayış yoxdur, minalıdır, heç bir infrastruktur yoxdur. Bu böyük fədakarlıqdır. Xüsusilə Kəlbəcər rayonuna qışda, qar şəraitində hündürlüyü 3500 metr olan Daşkəsəndən elektrik dirəkləri çəkildi, bu, doğrudan da, böyük fədakarlıqdır və bizim potensialımızı göstərir".

Prezident həmçinin görülən işləri yüksək qiymətləndirərək bildirdi ki, ölkəmiz təkcə maliyyə baxımından deyil, texniki və mütəxəssislər baxımından da müstəqil ölkədir.

Qeyd edək ki, dünyada yaşıl enerjiyə böyük maraq var. İnsanlar tərəfindən son iki əsrdə Yer kürəsi hədsiz dərəcədə çirkləndirilib. Sənayenin inkişafı insanların həyat səviyyəsinin yüksəlməsinə səbəb olsa da, ətraf mühitin bir o qədər çirklənməsinə gətirib çıxarıb.

İndi insanlar təbiətə vurulan ziyanı aradan qaldırmaq üçün özləri səy göstərirlər. Tullantısız istehsal və yaşıl enerjiyə üstünlük verilməsi də bununla bağlıdır.

Ölkəmiz gələcəyin enerji istehsalına yiyələnmək üçün indidən çalışır. Yanvarın 13-də ölkəmizdə ilk 240 MVt gücündə olan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bu yeni stansiya Səudiyyə Ərəbistanı Krallığının "ACWA POWER" şirkətinin investisiyası ilə tikiləcək. Gülüstan sarayında keçirilən təməlqoyma mərasimində Prezident İlham Əliyev demişdir: "Bu stansiya Azərbaycanda bərpa olunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaq. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaq. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planımızda olan məsələlər də öz həllini tapacaq. Təbii ki, ətraf mühitə təsirin azalması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaqdır".

Dövlət başçısı həmçinin bildirdi ki, bərpa olunan enerji ilə bağlı hələ çox işlər görüləcək. Vurğuladı ki, hazırda Cəbrayıl rayonunda böyük günəş elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın da istehsal gücü 240 meqavat olacaq. Ümumilikdə işğaldan azad edilən ərazilərdə 10 min meqavata yaxın bərpa olunan enerji istehsalı mümkündür. Prezident İlham Əliyev həmçinin Azərbaycanın qonşu ölkələrə enerji ixrac etdiyini xatırlatdı. Gələcəkdə bu ixracın həcmini artırmaq da mümkündür. Çünki indi Azərbaycan dünyada enerji təhlükəsizliyini tam təmin edən nadir ölkələrdəndir.

Məlumdur ki, 44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra işğaldan azad edilən ərazilərdə nəhəng infrastruktur layihələri icra edilir. Füzulidə hava limanı istismara verilib, Zəngilan və Laçın hava limanlarının tikintisi üçün hazırlıq işləri görülür. Bunlardan əlavə, Qarabağ və Şərqi Zəngəzurda müasir avtomobil yolları və dəmir yolu xətləri çəkilir, tuneller qazılır. Bir sözlə, cəmi bir ildə burada görülən işlər dostları sevindirir, düşmənə isə gözdağı verir.

Bölgənin dirçəlişində enerji təminatı müstəsna rol oynayır. Bu üzdən dövlət başçısı "Azərenerji" ASC-nin qarşısında mühüm vəzifələr qoyub. Bununla bağlı çox işlər görülüb. Keçən il Prezident İlham Əliyevin iştirakı ilə Laçındakı "Güləbird" Su-Elektrik Stansiyasının, "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su-Elektrik stansiyalarının yenidənqurulmadan sonra açılışı olub, "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasında təmir-bərpa işləri tamamlanıb.

Bununla yanaşı, azad olunmuş ərazilərdə 110/35/10 kV-luq rəqəmsal yarımstansiya tikilib, "Şuşa", "Füzuli", "Şükürbəyli", "Kəlbəcər", "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyaları istismara verilib. Ağdamda iki yerdə inşa edilən 110/35/10 kV-luq "Ağdam-1", "Ağdam-2" yarımstansiyalarında, o cümlədən "Qarabağ" Regional İdarəetmə Mərkəzində də tikinti işləri tamamlanaraq başa çatıb.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı ölkənin ümumi enerjisisteminə qoşulmaqla yanaşı, həm də tam rəqəmsallaşdırılıb. Belə ki, işğaldan azad edilən ərazilərdə dördüncü sənaye inqilabına uyğun olaraq intellektual enerjisistemi konsepsiyası həyata keçirməklə müasir, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formalaşdırılıb. Bunun sayəsində istismara verilən yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, açılıb qoşulma əməliyyatları, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması proqram təminatı vasitəsilə avtomatik həyata keçirilir.

Ermənilər minalanmış ərazilərin xəritəsini verməməklə və ya dəqiq olmayan xəritələr təqdim etməklə bizə işğaldan azad olunan ərazilərdə quruculuq və bərpa işlərinin aparılmasına, buradan didərgin düşən soydaşlarımızın doğma yerlərə qayıtmasına mane olmaq istəyirlər. Amma onların bütün cəhdləri boşa çıxır. İşğaldan azad olunan ərazilərdə icra edilən quruculuq-bərpa işləri sübut edir ki, biz Prezident İlham Əliyevin dediyi kimi, tezliklə Qarabağı cənnətə döndərəcəyik. Bu gün isə Xankəndidə və ətraf yerlərdə qaranlıqda yaşayan ermənilər Şuşanın gur işıqlarına həsrətlə baxırlar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Konfrans "Vətənpərvərliyin təbliği istiqamətində görülən işlər və mənfi təzahürlər" mövzusuna həsr edilib

Yanvarın 14-də Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının inzibati binasında "Vətənpərvərliyin təbliği istiqamətində görülən işlər və mənfi təzahürlər" mövzusunda konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, veteranların və Vətən müharibəsi iştirakçılarının qatıldıqları konfransda əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Konfransı giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədri Fatma Səttarova Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqdan danışıb. Müharibədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əsl sərkərdəlik məharəti göstərdiyini vurğulayan F.Səttarova işğalçı Ermənistan üzərində qazanılan şanlı Qələbənin Azərbaycan tarixinə qızıl hərflərlə həkk edildiyini bildirib.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxışında Azərbaycan dövlətinin qazilərə, müharibə əlillərinə və şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan bəhs edib, bu istiqamətdə həyata keçirilən layihələrdən danışıb: "Dövlətin qazilərə, müharibə əlillərinə və şəhid ailələrinə göstərdiyi mütəmadi diqqət və qayğı beynəlxalq praktikada Azərbaycan modelini formalaşdırıb. Bu model bütün dünyada maraq və təqdirlə qarşılanmaqdadır. Vətən müharibəsində olduğu kimi, bu gün də cəmiyyətin bütün kateqoriyalarının, o cümlədən qazilərin dövlətimizin və Prezidentimizin ətrafında birləşməsi zəruridir. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı vətənpərvərliyin təbliği istiqamətində çoxşaxəli fəaliyyət ortaya qoymaqdadır. Bu məqsədlə qazilərlə mütəmadi görüşlər keçirilir, onların qayğılarının öyrənilməsinə və həllinə dəstək verilir".

C.Xəlilov bildirib ki, son vaxtlar cəmiyyətdə müşahidə edilən bəzi mənfi təzahürlər dərin narahatlıq doğurur. Belə ki, müxtəlif şəxslər qazilərin adından sui-istifadə etməyə cəhd göstərirlər. Belə hallar yolverilməzdir. Vətən müharibəsində iştirak etməyən bəzi şəxslərin özlərini qazi kimi təqdim edərək müxtəlif iddialarla çıxış etməsi, dövlətin qazilərə göstərdiyi diqqət və qayğıya kölgə salmağa çalışması hallarına qarşı ictimaiyyət də çevik reaksiya verməli, bu cür şəxslərin qanunsuz əməlləri ifşa olunmalıdır. Bəzi radikal və təxribatçı qüvvələr qazilərin adından çıxış etməyə, onların cəmiyyətdəki nüfuzundan çirkin, qeyri-sağlam məqsədlərini reallaşdırmağa çalışırlar ki, bu da antixalq və antidövlət mahiyyəti daşıyır. "Belə qüvvələrin qazilərdən, onların cəmiyyətdəki nüfuzundan dövlətə qarşı istifadə etməyə cəhd etməsi yolverilməzdir. Qaziləri bu kimi hallarla bağlı diqqətli olmağa, hər zaman olduğu kimi, bundan sonra da dövlətin və Prezidentimizin ətrafında birləşməyə səsləyirik. Qazilərə diqqət və qayğının göstərilməsi təkcə dövlətin deyil, hər bir vətəndaşın borcudur. Bununla yanaşı, qazi adı daşıyan şəxslər də arzu və istəklərini mövcud qanunvericiliyin tələblərinə uyğun qaydada ifadə etməlidirlər. Son vaxtlar Vətən müharibəsinin və 2016-cı ilin Aprel döyüşlərinin iştirakçılarından 800-dək qazi Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına üzv olub. Respublikanın bütün bölgələrində və rayonlarında təşkilatımızın yerli strukturları mövcuddur. Qazilərimizi təşkilata üzv olmağa səsləyirəm. Qazilərimiz təşkilatdaxili müzakirələrdə və tədbirlərdə iştirak edə, onları narahat edən, düşündürən məsələləri dilə gətirə, təşkilatın imkanlarından yararlana bilərlər", - deyə ehtiyatda olan polkovnik bildirib.

Vətən müharibəsinin iştirakçıları konfransda çıxış edərək dövlətin onlara göstərdiyi diqqət və qayğıdan məmnunluqla bəhs ediblər. Qazilər bəzi hallarda cəmiyyətdə mənfi təzahürlərə də rast gəldiklərini vurğulayıblar. Qeyd olunub ki, bəzən müharibə iştirakçılarına qarşı laqeyd münasibət və süründürməçilik hallarına yol verilir. Bu da qəbuledilməzdir.

Konfransda mənfi təzahürlərə qarşı birgə mübarizənin zəruriliyi qeyd olunub və bu cür hallarla qarşılaşan qazilərə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına müraciət etmək, hüquqlarının təmini üçün qurumun imkanlarından faydalanmaq tövsiyə olunub.

Tədbirdə Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan mayoru Salman Hüseynovun, ehtiyatda olan kiçik çavuş Elçin Əhmədovun, polkovnik-leytenant Şahin Məmmədovun məsələ ilə bağlı çıxışları böyük maraqla qarşılanıb.

Konfransa yekun vuran Fatma Səttarova məsələnin aktuallığından danışıb, belə mənfi təzahürlərin birgə mübarizə nəticəsində aradan qaldırılacağına əminliyini bildirib.

# Bakıda "Alman-Azərbaycan Ginekologiya günü" adlı tədbir olub

Yanvarın 14-də Milli Onkologiya Mərkəzi (MOM) və Azərbaycan Onkoloqlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Alman-Azərbaycan Ginekologiya günü" adlı tədbir keçirilib.

Tədbir ərəfəsində Almaniyanın Gothe Universiteti Frankfurt Xəstəxanasının professoru Sven Becker ilə Milli Onkologiya Mərkəzinin (MOM) baş direktoru, akademik Cəmil Əliyevin görüşü olub.

AZƏRTAC xəbər verir ki, "Alman-Azərbaycan Ginekologiya günü"ndə MOM-in Onkoginekologiya şöbəsinin rəhbəri Şəmistan Alıyev mərkəzin baş direktoru, akademik Cəmil Əliyevin nitqini iştirakçıların diqqətinə çatdırıb: "Hörmətli qonaqlar, hər birinizi salamlayıram. Bildirmək istəyirəm ki, Alman-Azərbaycan Ginekologiya günü" qadın xəstəliklərinin profilaktikası və müalicəsi, ümumilikdə qadın sağlamlığının qorunmasına həsr olunub. Bütün dünyada olduğu kimi, Azərbaycanda da onkoloji xəstəliklərin müalicəsi, eləcə də qadınların sağlamlığı prioritet məsələlərdən biri kimi daim dövlətin nəzarətindədir". C.Əliyev konfrans iştirakçılarını təbrik edib, onlara xoş əhvali-ruhiyyə arzulayıb və konfransı açıq elan edib.

Konfransda Almaniyanın Gothe Universiteti Frankfurt Xəstəxanasının və Milli Onkologiya Mərkəzinin mütəxəssisləri ginekoloji xəstəliklər zamanı müasir müalicə üsullarını əhatə edən müxtəlif mövzular barədə çıxış ediblər.

Professor Sven Becker tədbirdə ginekologiya, xüsusilə də onkoginekologiya sahəsindəki ən yeni innovasiyalar, proqressiv müalicə metodları və digər aktual məsələlər barədə məlumat verib. O, həmçinin Azərbaycan və Almaniyanın müvafiq xəstəxanalarının həmin sahə üzrə gələcək əməkdaşlığından bəhs edib: "Ümid edirəm ki, gələcəkdə müəyyən onkoloji xəstəliklərin müalicəsi ilə bağlı təcrübə mübadiləsini və analoji konfransların sayını artıracağıq. Cəmiyyətdə hətta bir sıra hallarda sosial problemlərə yol açan xəstəliklərin müalicə metodlarının bu cür işgüzar görüşlər çərçivəsində müzakirəsi çox faydalıdır".

Tədbirdə Gothe Universiteti Frankfurt Xəstəxanasının Onkoginekologiya şöbəsinin müdiri Xəyal Qasımlı da təqdimatla çıxış edib. Həkim-mütəxəssis onkologiya sahəsindəki aktual xəstəliklərin gedişatı, profilaktikası və müalicəsi barədə danışıb. Qeyd edib ki, ölkədə onkoloji xəstəliklərin müalicə və müayinə metodlarında tətbiq edilən yeniliklər nəticəsində xəstəliklə mübarizədə irəliləyişə nail olunub.

Ümumilikdə təqdim edilən məruzələr "Ginekoloji cərrahiyyə və Fertility. Əhəmiyyətli olan nədir?", "Endometriozun müasir müalicəsi. Cərrahiyyə və konservativ müalicənin inteqrasiyası", "Endometrium xərçənginin molekulyar profili. KRAS və PI3K siqnal yolu mutasiyalı endometrium xərçəngində Polo-like Kinase 1 (PLK1)-ın proqnostik və terapevtik əhəmiyyəti", "3D laparoskopiyanın ve ICG texnologiyanın endometrial xərçəngin müalicəsində rolu", "Konservativ müalicə yoxsa dərhal konizasiya? HSIL ve ACIS-ın yaş qruplarına görə və hamiləlikdə terapevtik strategiyası" mövzularını əhatə edib.

"Alman-Azərbaycan Ginekologiya günü" tədbirinin iştirakçıları ginekoloji xəstəliklərin artım dinamikası barədə fikir mübadiləsi aparıb, analoji toplantıların daha intensiv şəkildə reallaşdırılmasının zəruriliyini vurğulayıblar.

"Alman-Azərbaycan Ginekologiya günü" tədbiri hibrid formatda keçirilib və "Zoom" platforması üzərindən onlayn şəkildə yayımlanıb.

# Qafqazın ən böyük külək-elektrik stansiyası

## 300 min ev elektrik enerjisi ilə təmin ediləcək, 220 milyon kubmetr qaza qənaət olunacaq, 400 min ton karbon qazının atmosferə atılması azalacaq

*Əvvəli 1-ci səh.*

Külək qurğularının və günəş batareyalarının quraşdırılması ətraf mühitdə hər hansı bir ekoloji pozuntu (çirklənmə) ilə müşayiət olunmur. Bu qurğuların dünyanın bir çox yerlərində, eləcə də Abşeronda quraşdırılması və istismarı üçün əlverişli yerlər mövcuddur.

Hazırda dünyada istehsal olunan enerjinin yalnız 15 faizi alternativ və bərpaolunan enerji mənbələrinin payına düşür. Bu enerjinin isə 79 faizi biokütlənin, 17 faizi suyun, 2 faizi geotermal, 1 faizi günəş və 1 faizi külək enerjisinin payına düşür.

Bu günə qədər Azərbaycanda ən böyük külək-elektrik stansiyası "Qobustan" Hibrid Elektrik Stansiyası idi. 2011-ci ilin sentyabr ayında Prezident İlham Əliyevin iştirakı ilə Qobustanda açılışı olan stansiyada külək, Günəş və bioqaz qurğusundan əldə olunan elektrik enerjisi istehsal edilir. Bu, həm də külək, Günəş və bioqaz stansiyalarını birləşdirən dünyanın ilk hibrid tipli elektrik stansiyası hesab olunur. 38 hektar ərazidə inşa olunan Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzi külək, Günəş və bioqaz stansiyaları ilə təchiz edilib.

Ümumiyyətlə, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub. İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir.

"Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməlinin qoyulmasını da bu siyasətin növbəti təntənəsi adlandırmaq olar. Bu stansiyanın investoru tanınmış və bu sahədə böyük təcrübəsi olan "ACWA Power" şirkəti, həmçinin enerji sahəsində dünyanın ən böyük müəssisəsidir. Şirkət tərəfindən inşa edilmiş stansiyaların enerji istehsalı gücü 42 min meqavatdan çoxdur. Yəni təsəvvür etmək o qədər də çətin deyil və şadam ki, bu şirkət Azərbaycana da maraq göstərir.



### Xarici investorların Azərbaycana marağı getdikcə artır

Müstəqilliyinin bərpasından ötən 30 ildə Azərbaycan iqtisadyyatına 300 milyon dollar investisiya yatırılıb. Bu investisiyanın yarısı xarici investisiyadır. Hər ötən il xarici investorların maraq göstərdiyi Azərbaycanda iş adamları üçün yaradılan şərait, edilən güzəşt onların sayının artmasını şərtləndirir.

Prezident İlham Əliyev bütün beynəlxalq tədbirlərdə, xüsusən də Davos Forumunun toplantılarında xarici investorlara müraciət edir və Azərbaycanda yaradılan biznes mühitinin şərtlərini diqqətə çatdırır və bununla da hər il onların sayında artım müşahidə olunur. İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra Azərbaycan işğaldan azad edilmiş torpaqlarımıza investisiya yatırmaq istəyən iş adamlarına böyük güzəştlər tətbiq edib. Bu gün bir çox Avropa ölkələrinin tanınmış şirkətləri Qarabağ və Şərqi Zəngəzurda layihələrini gerçəkləşdirməkdədirlər.

"Xızı-Abşeron" KES-in təməlqoyma mərasimində İlham Əliyev bu məsələyə də toxunaraq bildirdi ki, Azərbaycanda xarici investisiyaların qorunması ən yüksək səviyyədədir. Son illər Azərbaycanda, o cümlədən energetika sahəsində aparılan islahatlar, gözəl investisiya iqlimi, ölkəmizin uğurlu inkişafı, mövcud olan sabitlik, əmin-amanlıq, təhlükəsizlik - bütün bu amillər təbii ki, hər bir investor üçün önəmli rol oynayır: "Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətlidir və dəyərlidir. Bu möhtəşəm "Gülüstan" sarayında 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" artıq uzun illərdir ki, icra edilir və o müqavilədə bir söz, hətta bir vergül belə dəyişdirilməyib. Bütün digər müqavilələrə, böyük xarici şirkətlərlə imzalanmış müqavilələrə bizim münasibətimiz buna bənzərdir. Ona görə Azərbaycana 10 milyardlarla dollar həcmində xarici sərmayə qoyulub".

İlham Əliyev bildirdi ki, Azərbaycan müstəqillik dövründə uzun illər ərzində öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları, həm də elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda bu dörd məhsulu dünya bazarlarına ixrac edir. Beləliklə, ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir.

Prezident işğaldan azad olunmuş ərazilərimizin də imkanlarından söz açaraq investorlara mesaj ünvanlayıb. Qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə, Cəbrayıl rayonunda hazırda böyük günəş-elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı da 240 meqavata bərabər olacaq.

Onu da vurğulayaq ki, təhlillər nəticəsində işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisinin istehsalının mümkünlüyü bəlli olub. Prezident dost ölkələrin investorlarının, şirkətlərinin bu imkanları da araşdırmağa və Azərbaycanla bərabər böyük layihələrə start verməyə çağırıb.

### Azərbaycan indi dünyanın enerji ixracatçıları sırasındadır

Bir vaxtlar özünün daxili enerji tələbatını ödəyə bilməyən və bunu idxalla təmin edən Azərbaycanın adı indi dünyanın enerji ixracatçıları sırasında çəkilir. Hazırda Azərbaycan həm daxili tələbatı tam ödəyir, həm də bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Qonşu ölkələrlə Azərbaycanı birləşdirən yüksəkgərginlikli enerji xətləri bu imkanı bizə yaradır, lazım olarsa, yeni xətlər də çəkilə bilər.

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısıdır. Son illərdə region ölkələrində və eyni zamanda Avropada elektrik enerjisinə tələbat artır. Bəzi ölkələr nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərarlar qəbul ediblər.

Eyni zamanda dünyanın demək olar ki, gündəliyinin ön sıralarında olan "Yaşıl gündəliyi" də təsdiq edilib və Azərbaycan işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini "Yaşıl enerji" zonası elan edib. Artıq bir neçə su- elektrik stansiyası da inşa edilib.

Azərbaycanda "Xızı-Abşeron" KES-in yaradılması bir çox mənalarda olduqca önəmli və əhəmiyyətli layihədir. Bu, uğurlu göstərici və digər potensial investorlar üçün də bir siqnaldır. Stansiyanın gücü külək hesabına əldə olunan 240 meqavat olacaq ki, bunun da sayəsində 300 min ev elektrik enerjisi ilə təmin ediləcək. Eyni zamanda 220 milyon kubmetr qaza qənaət olunacaq və il ərzində 400 min ton karbon qazının atmosferə atılması azalacaq. Eyni zamanda Azərbaycanın 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunması məqsədinə əhəmiyyətli dərəcədə töhfə veriləcək.

Prezidentin də söylədiyi kimi, bu müqavilə onu bir daha təsdiq edir ki, Azərbaycanın bərpaolunan enerji potensialına dünyanın böyük şirkətləri tərəfindən yüksək maraq var. Bunu da şərtləndirən amillər sabitlik, əmin-amanlıq, əlverişli biznes mühiti, investorlar üçün yaradılan münbit şəraitdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan şəhid ailələrinə və qazilərə münasibətdə öz modelini ortaya qoyur

Prezident İlham Əliyev bu il yanvarın 12-də yerli televiziya kanallarına verdiyi geniş müsahibədə ölkə üçün əhəmiyyətli olan bir çox məsələlərə toxunmuşdur.





Dövlət başçısı əhalinin sosial rifahının yaxşılaşdırılması, şəhid ailələrinə və müharibə əlillərinə göstərilən diqqətdən də danışmış, son illər bu sahədə aparılan islahatlar və görülən işlər barədə məlumat vermişdir.

Prezident İlham Əliyev dünyada ərzaq məhsullarının bahalaşması səbəbindən əhalinin rifah halının yaxşılaşdırılması məqsədilə həyata keçirilən geniş sosial paketin əhəmiyyətini vurğuladı. Bildirdi ki, bu məqsədlə dövlət büdcəsindən 1,5 milyard manat vəsait ayrılıb, həmin sosial paketin əhatə dairəsi 2 milyondan çox insanı əhatə edəcək. Bu sosial paketin qəbulu sayəsində minimum əməkhaqqı 20, minimum pensiya 20 faiz yüksəlib. Bununla yanaşı, təqaüdlər, sosial müavinətlər də artırılıb.

Dövlət başçısı əhalinin sosial müdafiəsinin müntəzəm xarakter daşıdığını bildirərək demişdir: "Digər instrumentlər var və biz onlardan istifadə edirik. Azərbaycan xalqı əmin ola bilər ki, imkan daxilində imkan yarandıqca biz əlavə yığılmış vəsaiti, ilk növbədə, sosial məsələlərə yönəldəcəyik. Necə ki, mən qeyd etdiyim kimi, vergi orqanları proqnozdan 1,4 milyard manat vəsait artıq toplayıblar, 1,5 milyard manatlıq sosial paket dərhal təmin edildi. Yəni əlavə yığılmış bütün vəsait yalnız sosial layihələrə istiqamətləndirildi və bu, bir daha bizim sosial sahəyə nə qədər böyük önəm verdiyimizdən xəbər verir".

Prezident ölkəmizə rəhbərliyi dövründə yalnız bir dəfə əhalinin sosial həyatına mənfi təsir göstərən hal baş verdiyini söylədi. O da bir neçə il bundan əvvəl manatın devalvasiyası ilə bağlı olub. Bu addımın atılması iqtisadi və maliyyə baxımından məcburi idi. Çünki manatın dəyərinin süni şəkildə qorunması üçün dövlət milyardlarla dollar xərcləməyə məcbur olurdu. Bu məqsədlə manatın dəyərini sabit saxlamaq üçün 10 milyard dollar vəsait itirdik. Bütün bunlara baxmayaraq, manatın məzənnəsini sabit saxlamaq mümkün olmadı. Ölkənin valyuta ehtiyatını qorumaq üçün manatın bir qədər qiymətdən düşməsinə imkan verildi. Dövlət başçısı həmin məsələyə toxunarkən bildirdi ki, bu, insanların rifah halına mənfi təsir göstərmişdir. Belə qərarın qəbul edilməsi zəruri idi və bundan sonra vətəndaşların sosial rifahına zərər verə biləcək heç bir hadisə baş vermədi.

Biz 44 günlük Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuraraq qalib gəldik. Məlumdur ki, müharibə qansız-qadasız ötüşmür. Bu müharibədə 3 min igidimiz şəhid, çoxlu əsgər və zabitimiz isə əlil oldu. Ermənilər təkcə cəbhədə döyüşən hərbçilərimizə deyil, şəhər və kəndlərdə yaşayan mülki əhaliyə də atəş açırdı. Bunun sayəsində yaşayış və ictimai obyektlərlə yanaşı, mülki əhali arasında da həlak olanlar və yaralananlar oldu. Dövlət başçısı fərq qoymadan bu kateqoriyadan olan bütün insanların sosial müdafiəsi üçün lazım olan zəruri tədbirləri gördü.

Müharibə qurtarsa da, ermənilərin basdırdığı minaların partlaması səbəbindən hazırda da hərbçilər və mülki əhali arasında şəhid olanlar və yaralananlar var. Dövlət bunların da müalicəsi, protezlə təmin edilməsi üçün lazımi işlər görür. Bir sözlə, heç kəs dövlətin diqqətindən kənarda qalmır.

Prezident bu kateqoriyadan olan insanlara dövlət tərəfindən edilən güzəştlər barədə demişdir: "Mən bütövlükdə deyə bilərəm ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Çünki dünyada bir çox ölkələr müharibə şəraitində olublar. O ölkələrin təcrübəsini biz bilirik, öyrənmişik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsümüz idi. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib. Minik avtomibilləri verilir, 7400 avtomobil verilib".

Təkcə keçən il Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qazilərdən 850 nəfəri, İkinci Qarabağ müharibəsi şəhid ailələrinin və qazilərinin 750-si mənzillə təmin edilib. Dövlət Birinci Qarabağ müharibəsində iştirak etmiş bu kateqoriyadan olan insanların iki il ərzində növbədə duranları tam şəkildə mənzillə təmin etməyi planlaşdırıb. İkinci Qarabağ müharibəsində iştirak etmiş bu kateqoriyadan olanların isə yaxın bir neçə il ərzində mənzillə təmin edilməsi nəzərdə tutulub. Beləliklə, bütün şəhid ailələri və qazilər mənzillə tam təmin olunacaq.

Həssas kateqoriyadan olan insanların sosial təminatının yaxşılaşması üçün də zəruri tədbirlər görülür. Onlar üçün nəzərdə tutulmuş müavinətlər müntəzəm olaraq artırılır. Dövlət bu insanların məşğulluğunun təmin edilməsi üçün zəruri addımlar atır, müharibə əlillərini müasir protezlərlə təmin edir. Prezident vurğuladı ki, qazilər Avropanın ən qiymətli, ən bahalı, ən son texnologiyası olan protezlərlə təmin edilir. Həmin protezlər sayəsində qazilərimiz normal yaşaya bilər, hətta futbol oynaya bilər. Bu protezlərdən istifadə edən müharibə əlilləri əlini, qolunu itirsə də, normal həyata qayıtmaları mümkün olur.

Son 18 ildə Azərbaycanda iqtisadi və sosial islahatlar paralel şəkildə aparılır. İqtisadi islahatların əsas məqsədi ölkənin iqtisadi və maliyyə cəhətdən qüdrətlənməsidir. Dövlətin gəlirləri artdıqca sosial sferaya ayrılan vəsaitin məbləği də artır. Cari il üçün qəbul edilən dövlət büdcəsindən ən çox vəsait sosial sahəyə ayrılıb. Bu isə əhalinin maaş, pensiya və müavinətlərinin, o cümlədən digər sosial ödənişlərin artması deməkdir. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, dövlətin apardığı siyasətin əsas məqsədi Azərbaycan vətəndaşının mənafeyidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Naftalan: "Expo 2020 Dubai" beynəlxalq sərgisində

"Expo 2020 Dubai" beynəlxalq sərgisində Azərbaycanın sağlamlıq turizminin mərkəzi sayılan və öz təbii müalicəvi nefti ilə dünyada məşhur olan Naftalan da yer alıb.



Beynəlxalq sərgidə Naftalanı təmsil edən "Garabagh Resort & Spa", "Chinar Hotel & SPA Naftalan", "Gashalti Health Hotel Naftalan" hotellərinin stendləri və digər vəsaitləri "Azərbaycan" pavilyonunda, Dayanıqlı İnkişaf tematik zonasında yerləşdirilib. Dünyanın müxtəlif ölkələrindən gələn ziyarətçilər ilk dəfə naftalan neftinin nə olduğunu öyrənib və əyani olaraq onun müalicəvi effektivliyindən şəxsən əmin olublar.

Ziyarətçilərə naftalan neftinin müalicəvi xüsusiyyətlərindən, onun təbii komponentlərinin unikallığından danışılıb. Oynaq, dayaq hərəkət sistemi, dermatoloji, uroloji və digər 70-dən artıq xəstəliyin Naftalan nefti ilə müalicəsinin mümkünlüyü xüsusi vurğulanıb.

Ziyarətçilərə Naftalan şəhərində müasir, dünya standartlarına cavab verən avadanlıqlarla təchiz edilmiş turizm sağlamlıq mərkəzlərində şəfaverici neftilə müalicə prosedurlarından keçə biləcəkləri bildirilib.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***




# Məktəblinin ilk geyimi

**Sosial bərabərsizliyin əsaslı göstəricilərindən biri də geyimlərlə bağlıdır. İstənilən məkanda asanlıqla hər cür geyimli insana rast gəlmək, onlar haqqında ilkin təəssürat formalaşdırmaq mümkündür.**



Lakin geyim sərbəstliyinin azyaşlılar arasında, xüsusilə də təhsil ocaqlarında baş verə biləcək psixoloji zədələrə yol verməməsi üçün vahid məktəbli formasının tətbiqi arzuolunandır. Bu mövzuda fikir birliyi isə yoxdur. Bəzi mütəxəssislər bunu zəruri hesab edir, digərləri isə ehtiyac olmadığını düşünürlər.

Dünyada müasir məktəbli formasını tətbiq edən ilk ölkə Böyük Britaniyadır. 1552-ci ildə kimsəsiz və aztəminatlı ailələrdən olan, yoxsulluqdan dərsə getməyə paltar tapmayan uşaqların oxuduğu Londondakı “Christ's Hospital” adlı məktəbdə xüsusi uniformalar meydana çıxdı.

Geyimlər göy rəngdə idi və bu rəng çalarının mənası vardı. O zaman ən ucuz parça məhz göy rəngdə olduğu üçün bundan istifadə edilmişdi. Hazırda bu məktəb elit təbəqənin uşaqlarının oxuduğu məktəb olsa da, göy rəngli uniformalardan hələ də istifadə edilir. Bu məktəbli forması kəmərli uzun palto, ətək, şalvar, boyun lenti və sarı corabdan ibarətdir.

Əslində, ilk dəfə İngiltərədə vahid formanın geyinilməsinə 1222-ci ildə rast gəlinib. Həmin zamanda xristian kilsəsinin yepiskopu xalat formalı paltarı şagirdlərinə geyinməyi əmr etmişdi. XX əsrdə isə ümumi məktəbli geyimlərinə yastı papaqlar, qalstuklar, pencəklər də əlavə edilmişdi.

Məktəblilərin formaları müxtəlif dövlətlərdən, milli dəyərlərdən, hətta məktəbin daxili qaydalarından asılı şəkildə hazırlanır. Bəzi kasıb ölkələrdə forma məktəbə getməyin əsas əngəllərindən biri olduğu üçün şagirdlərə pulsuz paylanılır. Eyni zamanda bir sıra təhsil müəssisələri, xüsusən özəl məktəblər məxsusi loqolarını formanın üzərində əks etdirirlər.

## Müasir ticarət mərkəzlərinə keçid



**Ticari əməliyyatlar üçün müasirləşdirilmiş formada yaradılan “mollar” alış-verişdə üstünlük verilən əsas mərkəzlərdən biridir. Sayı dünyanın inkişaf etmiş ölkələrində daha çox olsa da, heç də digər ölkələr bu tendensiyadan kənarda qalmır. Hətta əminliklə demək olar ki, hər kəs bu ticarət mərkəzlərindən xəbərdardır.**

Ticarət mərkəzləri 1000 ildən çoxdur ki, qədim bazar meydanları, limanlardakı ticarət bazarları formasında mövcud olub. Dünyanın ilk müasir molu isə Amerikada yerləşən “Country Club Plaza”dır. Bu açıq ticarət mərkəzinin digər maraqlı tərəfi tikildiyi bölgənin bataqlıqda yerləşməsi idi. Cessi Klayd Nikols bu addımı ataraq sözün əsl mənasında bataqlığı gülüstana çevirmişdi. Buranın baş planı 1922-ci ildə görkəmli memar Edvard Delk tərəfindən hazırlanıb. Bir il sonra istifadəyə hazır olan mərkəzdə mağazalar, avtomobillər üçün parkinq yerləri, kafelər yer aldı. Ümumi ərazisinin 46 faizi geniş küçələrə və dayanacaqlara ayrılmışdı. Avtomobillə gələn müştərilər ilk dəfə mərkəzin içində park edərək rahatlıqla alış-verişlərini edirdilər. Plazanın fəvvarə və heykəllərlə bəzədilməsi isə buradakı xüsusi memarlıq işindən xəbər verir.

Əslində, Nikolas burada yalnız ticarət mərkəzi yox, həm də yeni bir şəhər salmışdı. Biznesmenlər onun bu addımını qınayır, mərkəzdən çox uzaq və tramvay xəttindən bir neçə məhəllə aralıda olan əraziyə çox az adamın gedəcəyini iddia edirdilər. Yeni salınan şəhərə marağın həddindən artıq çox olduğu görüləndə onlar bu fikirlərində yanıldıqlarını anlamışdılar.

İlk qapalı ticarət mərkəzi isə Minnesota ştatının Edina şəhərində salınıb. 1956-cı ildən qapılarını ziyarətçilərinə açan “Southdale” molun tikintisinə 20 milyon dollar xərclənib. Mərkəz istənilən fəsildə fəaliyyət göstərmək üçün kondisioner və isitmə sistemi ilə təchiz edilib. 3 mərtəbəli molda eskalatorlar da quraşdırılıb. Ticarət mərkəzinin 4-cü mərtəbəsi isə sonradan tikilib.

## Musiqi alətlərinin əvəzedilməzi

**Bütün musiqi alətlərinin şahı olan piano musiqinin döyünən ürəyidir. Pianonun zəngin səsli notları həm ifaçıya, həm də onun dinləyicilərinə misilsiz həzz bəxş edir. Görkəmli caz bəstəkarı, pianoçu Deyv Brubekin sözləri ilə desək, piano bütöv bir orkestrə bərabərdir.**



Piano tellərə çəkiclə vurulduqda səs çıxaran akustik alətdir. Pianonun dillərinə toxunulduqda çəkiclər işə düşür. Təzyiq nə qədər sərt olsa, səs də bir o qədər yüksək çıxır. Bu əfsanəvi alətin yaranma tarixi 1700-cü illəri əhatə edir. İlk pianonun ixtiraçısı İtaliyanın Padua şəhərindən olan Bartolomeo Kristoforidir. Onun hazırladığı pianonun tarixini dəqiq qeyd etmək mümkün deyil, lakin bu alətə 1700-cü ilə qədər Mediçi ailəsi sahib olub. O, bunu hazırlayarkən qərara gəlib ki, tellər çəkiclə vurularsa, dinamikada daha çox müxtəliflik yaranar. Beləliklə, meydana çıxan musiqi aləti “pianoforte” adlandırılıb. “Piano” sözü yalnız 1732-ci ildə pianofortenin qısaldılması ilə daha geniş yayılıb. İtalyancadan tərcümədə “forte” möhkəm, “piano” isə səssiz mənasını verir.

Kristoforidən sonra onun dizaynı əsasında Qotfrid Silbermann 1730-cu illərdə özünün yaratmaq istədiyi pianoların üzərində işləməyə başlamışdı. İohann Sebastian Bax onun ərsəyə gətirdiyi erkən modeli çox ağır toxunuşa və zəif zilə malik olduğu üçün məqsədəuyğun hesab etməmişdi. Lakin onun ilkin təcrübələri Kristoforinin alətlərindən daha uğurlu olmuşdu. Hətta bir neçə piano Prussiya kralı II Frederik tərəfindən alınmışdı. Bax da bu hadisədən sonra Silbermannın pianolarını istifadə etməyə başlamışdı.

XVIII əsrin sonlarında piano istehsalı bütün Avropaya yayılmağa başladı. Hər bir ölkə özünəməxsus dizaynla pianolar istehsal edirdi. İngiltərədən gələn pianolar daha ağır mexanizmə və yüksək səsə, Avstriyadan olanlar isə daha yüngül mexanizmə və yumşaq səsə malik idi.

Pianonun klavişlərinə gəldikdə hər bir alətdə eyni sayda düymə olmur. Ən çox yayılmış say 88-dir; yəni 52 ağ, 36 qara düymə olur. Köhnə pianolar müasirlərindən bir qədər kiçik olduğu üçün onlar adətən 85 düymədən ibarət olub.

## Jurnal nəşrə başladı…




**Medianın daha cəlbedici və şəkilli vasitəsi olan jurnallar canlı görünüşü ilə daha çox diqqəti çəkir. Tarix boyu xüsusilə satirik jurnalların dərci milli mədəniyyətin inkişafına, xalqı oyanışa səsləyən ideyaların təbliğinə yol açıb.**

“Philosophical Transactions” dünyanın ilk və ən uzunömürlü jurnalıdır. Kral Cəmiyyəti tərəfindən 1665-ci ilin martında təsis edilən jurnalın redaktoru naşir Henri Oldenburq idi. O, özünün elmi-fəlsəfi görüşləri əsasında materiallar hazırlamaq üçün dilçilik bacarıqlarından geniş istifadə etmişdi.

İlk nömrələrdə məktublara, həmin vaxtda nəşr olunmuş kitabların icmalları və xülasələrinə, Avropa filosoflarının müşahidələri və təcrübələrinə əsaslanan yazılara yer verilmişdi. Astronomiya və riyaziyyatın təkamülü haqqında məqalələr latın dilində çap olunsa da, jurnalın əsas dili ingilis dili idi.

Henri Oldenburqun ölümündən sonra jurnal Kral Cəmiyyətinin növbəti redaktorlarına keçdi. 1752-ci ilə qədər onlar jurnalın maliyyə məsələlərini öz üzərlərinə götürmüşdülər. Lakin sonradan cəmiyyətin ləğv olunması ilə jurnal rəsmi dövri nəşr kimi formalaşmağa başladı.

XIX əsrdən etibarən yaranan bir sıra cəmiyyətlər öz istiqamətlərinə uyğun şəkildə elmi nəşrlər dərc etməyə başladılar. Bu, nəşrlərin ixtisaslaşmasına səbəb oldu və “Philosophical Transactions” jurnalının nüfuzunu geridə qoyurdu. Beləliklə də, jurnal 1887-ci ildə iki fərqli istiqamət üzrə çap olundu. Bunlar “A” və “B” kateqoriyalı nüsxələr idi. “A” kateqoriyası fiziki, “B” kateqoriyası isə bioloji elmlərə həsr olunmuşdu.

XX əsrdə jurnalın məzmununda müəyyən dəyişikliklər edildi. Jurnalın ilk internet saytı 1997-ci ildə yaradılıb. 1887-ci ildən bəri çap olunan bütün buraxılışların arxivi 2010-cu ildən etibarən sayta yerləşdirilib. Hazırda hər iki məzmunlu jurnalda müxtəlif elmi tədqiqatlara, araşdırma, şərh tipli məqalələrə yer verilir.

# Ensiklopediyanın ən qədimi

**Ayrı-ayrı istiqamətlərə və ya bütün elmi fəaliyyət sahələrinə dair hərtərəfli, sistemli, ən vacib məlumatları verən elmi toplu ensiklopediya formasında təqdim olunur. Bununla belə, universal bilikləri özündə əks etdirən ensiklopediyalarla yanaşı, milli, regional, müxtəlif sahələr üzrə ixtisaslaşmış ensiklopediyalar da mövcuddur. Ensiklopediyada məlumat və məqalələr, əsasən, əlifba sırası ilə, bəzi hallarda isə mövzu bölgüsü ilə yerləşdirilir.**



Dövrümüzə qədər gəlib çatan ən qədim ensiklopedik əsər eramızın I əsrində yaşamış Roma dövlət xadimi Plininin “Naturalis Historia” toplusudur. O, təbiət tarixi, astronomiya, etnoqrafiya, heykəltaraşlıq, tibb, coğrafiya, geologiya və digər sahələri əhatə edən 37 fəsildən ibarət 10 cildlik əsər tərtib etmişdi. Ensiklopediyanın ön sözündə 200-dən çox alimin 2000 əsərindən 20.000 fakt əldə edildiyi və müəllifin öz təcrübəsindən də bir çox informasiyaların əlavə edildiyi qeyd edilib. Bu məlumatların əksəriyyətini Plini əyalətlərə etdiyi səfərlər və müxtəlif şəxslərlə ünsiyyət zamanı toplamışdı.

Plini əsərdəki materialları ümumidən xüsusiyə doğru sıralamışdı. Müəllif səmadan başlamış, astronomik sualları cavablandırmış, sonra yerin coğrafiyasına keçid edərək heyvanlar və bitkilərdən bəhs etmiş, sonda isə yerin altından çıxarılan minerallar və metallar haqqında bilgilər vermişdi. Bundan əlavə, o, yazılarında ardıcıl olaraq təbiəti yuxarıdan aşağıya - səmadan yerə doğru təsvir etmişdi.

Sonrakı dövrlərdə artıq bir çox yazarlar onun əsərlərinə istinad ediblər. Xüsusilə, əsərin “Təbiət tarixi” hissəsindən həmin dövrün digər ensiklopedistləri də geniş istifadə ediblər. Çap maşınının ixtirasına qədər onun qələmə aldığı orijinal mətnlər həddindən artıq böyük həcmdə olduğundan tez-tez ixtisar olunurdu. Əsərin günümüzə qədər bir çox əlyazmaları gəlib çatsa da, heç biri onu bütünlüklə əhatə etmir.

Ensiklopediyanın ilk dəfə 1501-ci ildə Kristoforo Landino tərəfindən italyan dilinə tərcümə edilmiş forması ortaya çıxmışdı. Bundan sonra toplu fransız və ingilis dillərinə tərcümə edilmişdi. Orta əsrlərdən etibarən isə yazılan ensiklopedik əsərlərin sayı sürətlə artmışdı. Hazırda rəqəmsal ensiklopediyalar internet saytlarda ödənişli və ya ödənişsiz şəkildə üstünlük təşkil edərək istifadəçilərə təqdim edilir.

*Aydan XƏLİLOVA,*
*“Azərbaycan”*




# İnteqrasiya olunan barmaq izi

**Ekrana inteqrasiya edilmiş barmaq izi texnologiyasına malik smartfonlar hələ 2018-ci ildə satışda görünməyə başlamışdı. Lakin bu texnologiyadan şirkətlər aktiv şəkildə 2019-cu ildən istifadə edirlər.**



“Xiaomi” isə sözügedən texnologiyanın inkişafına təkan vermək niyyətindədir. Belə ki, şirkət barmaq izi skanını ekranın istənilən hissəsinə inteqasiya etməyə imkan verən texnologiyanın patentini əldə edib.

Ayrı-ayrı hallarda müasir barmaq izi texnologiyaları öz böyük ölçüləri ilə fərqlənir. Bəzi hallarda onlar smartfon ekranının yarısını tutur. Ekrana inteqrasiya edilən barmaq izi skanı texnologiyasının ölçüsü isə 1 santimetrdən böyük olmur və əsasən, ekranın aşağı hissəsinə yerləşdirilir.

Çinin Patentlər üzrə Agentliyinin verdiyi məlumata görə, “Xiaomi”nin yeni texnologiyası barmağı ekrandakı müəyyən hissəyə toxundurmaq prosesinə ehtiyac duymadan tez bir zamanda smartfonu blokdan çıxartmağa imkan verəcək. “Xiaomi”nin yeni barmaq izi skanı texnologiyasının çalışması üçün infraqırmızı LED elementlərdən ibarət xüsusi şəbəkədən istifadə edilir. İnfraqırmızı LED elementlər sensor layı ilə ekran arasında olan orqanik işıq diodları üzərlərində yerləşir. Sensor layı öz növbəsində barmağın ekrandakı istənilən hissəyə toxunuşunu qeydiyyata alaraq barmağın formasını və ekran üzərindəki yerləşdiyi yeri təyin edir. Daha sonra LED elementlər barmağın ekran üzərində yerləşdiyi yerə infraqırmızı işıq buraxır. Bu halda ekranın digər hissələrində olan LED elementlər işə düşmür. Barmaq yastığının işığı əks etdirməsindən sonra barmaq izi öz növbəsində proyeksiya şəklində qəbulediciyə ötürülür. Əldə edilmiş məlumatlar əsasında smartfon barmaq izi xəritəsini yaradır və onu əvvəlki nümunələr ilə müqayisə edir. Müqayisə zamanı nümunələr bir-birilərinə oxşardırlarsa, smartfon blokdan çıxarılır.

“Xiaomi”nin sözügedən texnologiyanı patentləşdirməsi hələ o demək deyil ki, dəqiq şəkildə şirkət smartfonlarında reallaşdırılacaq.

## “Huawei” videokartlar hazırlayacaq



“Huawei” şirkəti təkcə öz smartfonları və çeşidli məişət texnikası ilə tanınmır. O, həmçinin rəqəmsal cihazlar üçün də müxtəlif cür hissələr istehsal edir. Şirkətin yeni yaradılan tədqiqat mərkəzində yalnız videokartlar hazırlanacaq. Bu işin təməli 2012-ci ildə qoyulub və o vaxtdan “Huawei Kunpeng 920” adlı server prosessorları, “Ascend 910” adlı neyron hesablama modulları hazırlanır.

“Huawei” şirkətinin ilk videokartları isə data mərkəzlərdə, hesablama sistemlərində və neyroşəbəkə funksiyalarının reallaşdırılmasında istifadə olunacaq. İnsayderlər qeyd ediblər ki, şirkət artıq yaxşı server həllərinə malik “Nvidia” şirkətinin əməkdaşları ilə danışıqlar aparır.

## Teleskop sirləri açır

**Təyin edilməsi və izlənməsi hələ mümkün olmayan hipotetik qaranlıq materiya kainatda özünü yalnız bəzi qravitasiya hadisələri kimi büruzə verir. Alimlər bu barədə geniş məlumatlara malik deyillər.**



İngilis fizik və kosmoloqu Stiven Hokinqin 50 il bundan öncə ikən irəli sürdüyü nəzəriyyəyə görə qaranlıq materiya kainatın ilkin mərhələlərində yaranmış kiçik ölçülü qara dəliklərdir. Ötən ilin sonunda NASA tərəfindən “Ariane 5” raketi ilə kosmosa göndərilmiş “James Webb” teleskopu da məhz bu cür qara dəlikləri aşkar edərək tədqiqata başlayacaq.

Stiven Hokinqin sözlərinə görə, təxminən 15 milyard il əvvəl baş vermiş böyük partlayışdan sonra ətrafa yayılmış maddənin sıxlığı həddən çox yüksək olub və bu da öz növbəsində qara dəliklərin yaranmasına gətirib çıxarıb. Lakin elm sahəsində geniş yayılmış digər nəzəriyyəyə əsasən, qara dəliklər artıq sönməyə başlamış müəyyən kütləli ulduzlardan yaranır. Buna görə də qara dəliklər kainatın ilkin inkişaf mərhələlərində meydana gələ bilməzdi. Əgər qara dəliklər ilkin maddədən yaranmışdısa, o halda kütlə mərkəzinə çevrilməliydilər. Nəticədə onların ətraflarında adi maddə yığılmalı və bunun sayəsində qara dəliklərin ətraflarında ulduzlar və qalaktikalar yaranmalı idi.

Kosmosa göndərilmiş “James Webb” teleskopu kainatın ilkin mərhələlərinə nəzər yetirməkdə yardımçı olacaq. Teleskop qara dəlikləri “görməsə” də, insanların indiyə kimi müşahidə edə bilmədikləri ən uzaq keçmişdəki ulduzları təyin edə biləcək. Keçmişdə ulduzların qravitasiya davranışları ilə linza effekti (öz qravitasiya sahəsi vasitəsilə elektromaqnit şüalanmanın yayılma istiqamətini dəyişən yüksək kütləli obyekt) sayəsində bizim qara dəliklər hesab etdiyimiz obyektləri dolayı yolla təyin etmək mümkün olacaq. Ola bilsin bunun sayəsində kainatın təkamülü ilə də yeni məlumatlar əldə olunacaq.

## Ayda su



**Çinin Geologiya və Geofizika İnstitutunun alimləri “Chang'e-5” adlanan pilotsuz kosmik cihazın Aya eniş nöqtəsində əldə edilmiş fotoları və məlumatları analiz ediblər.**

Cihazın eniş nöqtəsindən əldə etdiyi Ayın qırıntılardan ibarət ən üst qatı olan reqolitin tərkibində 1 ton torpaq və süxurun payına düşən 120-180 qram su mövcuddur. Bu Yer kürəsində olan göstəricidən daha aşağıdır. Tədqiqat çərçivəsində alimlər təkcə fotoları deyil, həmçinin aparatın konstruksiyasında olan spektrometr vasitəsilə reqolitin və süxurun spektral əks etdirmə özəlliyinin məlumatlarını da analiz ediblər.

Nümunədə mövcud olan su səviyyəsini molekulların işığı necə udduqları əsasında təyin etmək mümkündür. Lakin bu üsul o qədər də dəqiq nəticə vermir. Belə ki, Ay səthindən ifraz olunan istilik əldə edilən məlumatlara təsir göstərir. Çinli alimlər bu təsiri istilik korreksiya modelinin istifadəsi vasitəsilə kompensasiya ediblər. Əldə edilmiş məlumatlar Ay torpağında 120 qram, yüngül qabarıq süxurda isə 180 qram suyun olduğunu göstərib. Tədqiqatçıların fikirlərinə əsasən, buradakı suyun əsas mənbəyi Günəş küləyidir.

Süxurun tərkibində olan yüksəksəviyyəli rütubət Ay səthinin altında yerləşən naməlum mənbə ilə əlaqələndirilir. Qeyd etmək lazımdır ki, “Chang'e-5” missiyası 2020-ci ildə başa çatıb. Missiyanın sonunda kosmik cihaz 1731 qram Ay süxuru götürərək onu Yer kürəsinə uğurla çatdırıb. Ayda suyun mövcud olması üzrə sübutlar daha əvvəllər də mövcud olub. Lakin onlar Ay süxurlarının araşdırılması və orbital aparatların müşahidələri vasitəsilə əldə edilmişdi.



## “Tesla”nın rekord göstəricisi

**Amerikanın “Our Next Energy” şirkəti tərəfindən elektromobillər üçün nəzərdə tutulmuş yeni növ batareya “Tesla Model S” avtomobilinə quraşdırılıb. Aparılmış testlər nəticəsində yeni növ batareya ilə işləyən avtomobil daha uzun yol qət edərək dünya rekorduna imza atıb.**

“Our Next Energy” şirkəti uzun illər “Apple”da çalışmış pakistanlı mühəndis Mujib İjaz tərəfindən təsis edilib. Şirkət elektromobillər üçün yeni növ batareyaların istehsalı üzrə ixtisaslaşıb.

Test üçün “Tesla Model S”in seçilməsi heç də təsadüfi deyil. Belə ki, bir dəfə şarj olunandan sonra daha uzun məsafəyə yol qətetmə üzrə əvvəlki dünya rekordunu da məhz bu model qazanmışdı. Saat həcmi 203.7 kilovat olan batareyanı “Tesla Model S”ə quraşdırandan sonra elektromobil bir dəfəyə 1210 kilometr yol qət edib.

Test dövründə elektromobilin orta sürət həddi saatda 88 kilometr olub. Ümumilikdə o, 14 saat yolda olub. Qeyd etmək lazımdır ki, testlər qış mövsümündə aparılıb. Qışda elektromobillərin qət etdikləri yol göstəriciləri bir qədər aşağı düşür.

## Elektrikli “BMW”



“BMW” şirkəti müştərilərinə “iX M60 off-road” modelinin elektrikləşdirilmiş versiyasını təqdim edib. Sözügedən elektromobilin 619 at gücündə olan iki mühərriki var. Mühərriklərin maksimal fırlanması 1100 Nyuton metr təşkil edir. “BMW iX M60” modeli şarj olunandan sonra 566 kilometr yol qət edə bilir. Tam şarj olunma prosesi 35 dəqiqədir. Elektromobilin batareya həcmi isə 105.2 vatt saatdır. O, 100 kilometr sürəti 3.9 saniyəyə yığır. Maksimal sürət saatda 250 kilometrdir.

Şirkət həmçinin elektromobil üçün yeni proqram təminatını və sürücüyə yardım sistemini hazırlamağı da planlaşdırır. “Elektrikli BMW iX M60”ın satışlarına bu ilin yay fəslində start veriləcəkdir. Onun Böyük Britaniyada qiyməti 111.905 funt sterlinqdən başlayacaq.

## Bir toxunuşla rəngi dəyişən avtomobil

**Almaniyanın “BMW” şirkəti “CES 2022” sərgisində avtomobilin rəngini butona basmaqla dəyişə bilən texnologiyanı təqdim edib.**



Bu prosesdə “E Ink” adlanan elektron mürəkkəbdən istifadə olunur. İndiyədək həmin mürəkkəb elektron kitabların çapında tətbiq edilirdi.

Elektron mürəkkəbdən “E Ink Prism” adlı mikrokapsullardan ibarət elektroforetik örtük layı hazırlanıb. Hər bir kapsulda mənfi yüklənmiş ağ və müsbət qara elementlər mövcuddur. Seçimdən asılı olaraq elektrik sahəsi kapsulların üzərlərində ağ və qara elementlərin yığılmasına imkan verir. Nəticədə avtomobil seçilən rəngə boyanır. Seçim üçün hələlik üç rəng var - ağ, qara və boz.

Şirkətin təmsilçiləri bildiriblər ki, sözügedən texnologiyanın kütləvi istehsala başlaması önümüzdəki illər üçün nəzərdə tutulur.

## “Panasonic”dən yenilik

**“CES 2022” sərgisində “Panasonic” şirkəti “MeganeX” adlandırılan yeni “Virtual Reallıq” eynəyi təqdim edib.**



Şirkət sözügedən cihaz üzərində 2020-ci ildən çalışır. Digər analoji cihazlardan fərqli olaraq, “MeganeX” kompakt ölçüsü və yüngül çəkisi ilə diqqəti cəlb edir. Bunların sayəsində ondan istifadə etmək daha rahatdır. Çəkisi cəmi 250 qramdır. Eynək “Qualcomm Snapdragon XR1” prosessoru əsasında qurulub. “MeganeX”dən ayrıca istifadə etmək mümkün deyil. Belə ki, onu mütləq şəkildə USB girişi vasitəsilə oyun kompüterinə qoşmaq lazımdır.

“Virtual Reallıq” eynəyi “SteamVR” ilə çalışmaq üçün nəzərdə tutulub və bu platformada olan bütün oyunları və tətbiqləri dəstəkləyir. “MeganeX” micro-OLED ekranlar ilə təchiz olunub və 2560x2560 piksel keyfiyyətli təsviri istifadəçiyə təqdim edir.

“Panasonic” öz yeni cihazını xüsusi kondisioner sistemi ilə təchiz etməyi planlaşdırır. Həmin sistem sayəsində istifadəçi virtual mühitdə soyuğu və ya istiliyi də “hiss edə” biləcək.

“MeganeX” yaxın aylarda satışa çıxarılacaq.

*Ülkər XASPOLADOVA,*
*“Azərbaycan”*

# “Buta Airways” aviaşirkəti bütün reyslərdə aviabiletlərin qiymətini 29 avroya endirib

Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycanın aşağıbüdcəli aviadaşıyıcısı olan “Buta Airways” aviaşirkəti qiyməti 29 avrodan başlayan “Büdcə” tarifi ilə aviabilet əldə etmək imkanını bərpa edib. Bu tarif koronavirus pandemiyasının aktiv fazasında müvəqqəti olaraq mövcud deyildi.




“Büdcə” tarifi üzrə aviabiletləri əvvəlki kimi yalnız aviaşirkətin **www.butaairways.az** rəsmi saytından əldə etmək olar. Bu tarifdə baqajın pulsuz daşınması nəzərdə tutulmayıb. Lakin hava limanında uçuşa qeydiyyat aviadaşıyıcının digər tariflərində olduğu kimi, pulsuz həyata keçiriləcəkdir. Təyyarənin salonunda yer seçimi aviaşirkətin hər üç tarifində ödənişli xidmət kimi təklif olunur.

“Büdcə” tarifi “Buta Airways” aviaşirkətinin bütün xüsusi reyslərində qüvvədədir. Aviaşirkətin marşrut şəbəkəsinə İstanbul, Alanya, İzmir, Ankara, Moskva (“Jukovski” Hava Limanı), Ufa, Kazan, Həştərxan, Kiyev, Tbilisi, Ər-Riyad, Dammam kimi istiqamətlər daxildir.

- “Büdcə” tarifi çərçivəsində aşağıdakı ləvazimatların təyyarənin salonunda pulsuz daşınmasına icazə verilir:
- Ölçüləri 30x35x10sm-dən artıq olmayaraq şəxsi əşyalar üçün kiçik çanta və ya kamera çantası və portativ kompüter çantası (çantalar yalnız təyinatı üzrə istifadə edilməlidir);
- Üst geyimi, palto və ya plaş, portpleddə kostyum (yalnız təyinatı üzrə istifadə edilməlidir);
- Gül dəstəsi (əl yükünün icazə verilən ölçülərindən artıq olmamalıdır);
- Uşaqla səyahət zamanı lazım ola biləcək uşaq qidası, yol beşiyi, yüngül, qatlanan uşaq arabası (hava gəmisinin baqaj bölməsində daşınır);
- Fiziki imkanları məhdud olan sərnişinlər üçün qatlanan kreslo-araba (hava gəmisinin baqaj bölməsində daşınır) və qoltuqağacları və ya əsa;
- Çətir və uçuş zamanı oxumaq üçün müəyyən miqdarda materiallar.

Həmçinin aviadaşıyıcının xüsusi reyslərində “Büdcə” tarifindən başqa, müvafiq olaraq 10 kq və 23 kq qeydiyyatdan keçirilən baqajın daşınması daxil olmaqla, “Standart” və “Super” tarifləri üzrə aviabiletlər əldə etmək imkanı təklif olunur.

# “Omikron” koronavirusa yoluxma rekordlarını yeniləyir

*Əvvəli 1-ci səh.*

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus da yoluxma saylarındakı kəskin artımı “Omikron” ştamının sürətlə yayılması ilə izah edir.

## Bədbin proqnoz

ÜST rəsmilərinin dediklərindən belə məlum olur ki, “Omikron” qarşıdakı soyuq ayların epidemioloji baxımdan daha ağır keçməsinə səbəb olacaq. Təşkilatın xüsusi nümayəndəsi Devid Nabarro bildirib ki, qarşıdakı 3 ay ağır keçəcək. Nabarro pandemiyanın bitmə tarixinin uzaqda olmadığını söyləsə də, virusun təkamül etdiyini, yeni ştamların yaranmaqda davam edəcəyini vurğulayıb. Gələcək dövr haqqında çox ümidverici danışmayan ÜST rəsmisi koronavirusun “Omikron” ştamına yoluxma hallarının kəskin artacağının proqnozlaşdırıldığını açıqlayıb, yeni ştamlara görə hər 3-4 aydan bir yoluxma saylarında artımın ola biləcəyini də istisna etməyib.

ÜST-ün Avropa Regional Bürosunun direktoru Hans Kluqe də hazırda Balkan ölkələrində yayılmaqda olan “Omikron”un artıq Qərbi Avropada ən çox yayılan virusa çevrildiyini nəzərə çatdıraraq qeyd edib ki, ABŞ-ın Sağlamlıq Ölçməsi və Qiymətləndirmə İnstitutunun hesablamalarına görə, əgər bu ştam belə sürətlə yayılmağa davam edərsə, yaxın 6-8 həftə ərzində Avropa əhalisinin 50 faizindən çoxu (6,7 milyon) “Omikron”a yoluxacaq.

Rusiyalı alimlər isə pandemiyanın “Omikron”la bitməyəcəyi barədə xəbərdarlıq ediblər. Onlar qeyd ediblər ki, pandemiyanın bu ştamla bitəcəyinə inanaraq sakitləşmək olmaz.

## Koronavirusun ilk variantı insanı 5, “Delta” 4, “Omikron” isə 3 günə xəstələndirir

Hazırda “Omikron”la bağlı müşahidə edilən vəziyyətlərdən biri də ona yoluxanlarda asimtomatik halların qeydə alınmasıdır. ÜST-ün Avropa Regional Bürosunun direktoru Hans Kluqe deyib ki, bu ştam çox sürətlə yayılsa da, yoluxanların çoxunda asimptomatik hallar qeydə alınır, ölüm halları yüksək deyil. “Omikron”un insan hüceyrələrinə daha asan yapışan mutasiya olduğunu nəzərə çatdıran Hans Kluqe hətta əvvəllər yoluxmuş və ya peyvənd olunmuş şəxslərin bu ştama yoluxa bildiyini diqqətə çatdırıb.

Türkiyənin Qazi Universiteti Tibb fakültəsinin dekanı, professor Mustafa Nəcmi İlhan isə bildirib ki, “Omikron”un inkubasiya müddəti daha qısadır. Professor bunu da nəzərə çatdırıb ki, insanlar digər variantlara nisbətən daha geniş yayılan “Omikron”a yoluxduqda daha az bir müddətdə xəstələnirlər. Koronavirusun Uhanda aşkarlanmış variantında bu müddət 5 gün olduğu halda, “Delta” variantında həmin müddət 4 gün, “Omikron”da isə 3 gündür: “Vətəndaşlar düşünməsinlər ki, təmasım oldu, amma üzərindən 5 gün keçib, artıq xəstə olmayağacam. Bu, yanlış fikirdir. İnsanlar özlərini qorumalı və peyvənd etdirməlidirlər”.

## “Buster” doza qorunma üçün ən əsas yoldur

Bir neçə gün əvvəl Azərbaycanda “Omikron” ştamının aşkarlanması barədə məlumat verildikdən sonra rəsmi qurumlar, eləcə də yerli mütəxəssislər insanları gigiyena və sosial məsafə qaydalarına riayət etməklə yanaşı, vaksin olunmağa çağıraraq onlara “Buster” dozanı vurdurmağı tövsiyə edirlər. Yerli KİV-ə müsahibə verən Azərbaycan Prezidenti İlham Əliyev də artıq üçüncü dəfə peyvənd olunduğunu nəzərə çatdıraraq insanlara özlərini yeni davranış qaydalarına uyğunlaşdırmağı tövsiyə edib.

Əvvəllər olduğu kimi, yenə də peyvəndlər pandemiyadan qorunmaq üçün ən yaxşı vasitə kimi göstərilir. Hazırda koronavirusdan ölüm nisbəti sabit olaraq qalsa da, vaksinasiyanın zəif olduğu ölkələrdə yüksək ölüm faizi qeydə alınır.

ÜST rəsmiləri təsdiqlənmiş peyvəndlərin “Omikron” da daxil olmaqla, ağır xəstəliklər və ölümlərə qarşı yaxşı qorunmanı təmin etdiyini yenə də xüsusi vurğulayırlar.

ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus isə bu günlərdə bir daha dünyanın diqqətini bəzi ölkələrin peyvəndləmədən kənarda qalmasına çəkib. Onun sözlərinə görə, Afrikada əhalinin 85 faizindən çoxu hələ də peyvəndin ilk dozasını gözləyir. Dünyanın 90-a yaxın ölkəsi isə indiyədək əhalisinin 40 faizini belə peyvənd etdirməyib, bu ölkələrin 36-sı əhalisinin 10 faizindən azını peyvənd etdirməyə nail olub.

COVID-19-un yeni ştamları yayıldıqca dünyada peyvəndlə bağlı tədqiqatların dərinləşdirilməsinə, mövcud peyvəndlərin təkmilləşdirilməsinə ehtiyac yaranır. Almaniyanın biotexnologiya şirkəti olan “BioNTech” “Omikron” variantına qarşı təsirli koronavirus peyvəndi hazırlamaq üçün “Pfizer” ilə birlikdə işə başladığını bəyan edib. “BioNTech”in baş direktoru professor Uğur Şahin peyvəndin klinik sınaqlarına yanvarın sonunda başlayacağına, rəsmi icazələr alındıqdan sonra vaksini mart ayına qədər istifadəyə verəcəklərini gözlədiklərini açıqlayıb.

***İlhamə İSABALAYEVA, “Azərbaycan”***







## ◆ Dünya gündəmi

# Avropada müharibə təhlükəsi artır

## ATƏT sədri xəbərdarlıq etdi

*Əvvəli 1-ci səh.*

Onun sözlərinə görə, hazırkı böhran bütün Avropa sisteminin sabitliyini və təhlükəsizliyini təhdid edir.

ABŞ-ın ATƏT-dəki daimi nümayəndəsi Maykl Karpenter isə bu həftə təşkilatın formatında konkret nəticələr əldə ediləcəyinə şübhə ilə yanaşır: “Bizim əsas məqsədimiz prinsip etibarilə dialoq qurmaqdır”. Karpenter əlavə edib ki, əsas prinsip və öhdəliklərə uyğun olaraq, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət , bir-birinin sərhədlərinin pozulmazlığı, güc və ya güc hədələrinin tətbiq edilməməsi də daxil olmaqla, təhlükəsizliyin möhkəmləndirilməsi yollarını müzakirə etmək üçün yalnız ATƏT-də, bütün 57 üzv dövlətin səs bərabərliyi ilə bir masa arxasına əyləşmək olar.

## Rusiya nümayəndəsi Qərbi danışıqları uzatmaq cəhdlərindən çəkinməyə çağırıb

Rusiyanın ATƏT-dəki daimi nümayəndəsi Aleksandr Lukaşeviç Qərbə təhlükəsizlik məsələsində danışıqları uzatmaq cəhdlərinə görə xəbərdarlıq edib: “Açıq şəkildə xəbərdarlıq etmək istəyirik. Rusiyanın ABŞ və NATO ilə dialoqu çərçivəsində təhlükəsizliyin təmin edilməsi üzrə məzmunlu danışıqlar prosesini uzatmaq və ya prosesi mövqelərin mənasız şəkildə mübadiləsinə çevirmək cəhdləri istisnasız olaraq bütün dövlətlərin təhlükəsizliyi üçün vəziyyətin qaçılmaz pisləşməsi ilə nəticələnə bilər”.

## “Diplomatik marafon”

Yanvarın 12-də Brüsseldə keçirilmiş NATO Şurası ilə Rusiya arasında 2019-cu ildən bəri baş tutan ilk danışıqlarda Şimali Atlantika Alyansının 30 ölkəsinin nümayəndələri və təşkilatın baş katibi Yens Stoltenberq iştirak ediblər. Rusiya nümayəndə heyətinə xarici işlər nazirinin müavini Aleksandr Quşko rəhbərlik edib, heyətin tərkibində müdafiə nazirinin müavini Aleksandr Fomin də olub. ABŞ-ı dövlət katibinin müavini Vendi Şerman təmsil edib.



NATO Şurası-Rusiya iclası bu həftə Moskva ilə münaqişənin həllinə dair “diplomatik marafon”un mərhələlərindən biri idi. Belə ki, yanvarın 10-da Vendi Şerman Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkovla Cenevrədə danışıqlar aparıb. Kreml və rusiyalı diplomatlar bu danışıqları uğursuz kimi qiymətləndiriblər. Dünən Sergey Ryabkov RTVİ telekanalına müsahibəsində bildirib ki, Vaşinqton və onun müttəfiqləri əsas təhlükəsizlik təkliflərini rədd ediblər və buna görə də yaxın zamanlarda yeni görüş üçün əsas yoxdur.

***Rizvan HİLALOĞLU, “Azərbaycan”***


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**

**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | | |
|---|---|---|
| “Azərpoçt” MMC | (012) 598-49-55, (051) 225-02-13 | 1 illik<br>124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 | |
| “Kaspi” MMC | (012) 432-39-55, (012) 510-82-24 | 6 aylıq<br>62,40 (altmış iki manat qırx qəpik) manat |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 | |
| “Səma-M” MMC | (012) 594-09-59 | 3 aylıq<br>31,20 (otuz bir manat iyirmi qəpik) manat |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 | |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 | Hörmətli oxucular!<br>Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz. |
| “City press” MMC | (055) 819-09-26 | |

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## “Moskva konfetlərindən avtomobil qazan!” tirajlı stimullaşdırıcı lotereya başa çatdı

20 noyabr - 31 dekabr 2021-ci il tarixlərini əhatə edən, “Moskva konfetləri”nin “Bravo” marketlər şəbəkəsində keçirdiyi stimullaşdırıcı lotereya 10 yanvar 2022-ci ildə tirajın oynanılması ilə başa çatdı. Oynanılan tiraj “İnstaqram” və “Feysbuk” sosial şəbəkələrində canlı yayımla izləyicilərə nümayiş etdirildi.

“Moskva konfetləri” uduş qaliblərinə 19 hədiyyə qazandırdı:
013634, 003793, 058364 nömrəli biletlərin sahibləri tozsoran;
056551, 060182, 018879, 057567, 018667 nömrəli biletlərin sahibləri telefon;
046386, 006313 nömrəli biletlərin sahibləri tablet;
066264, 030863, 069713 nömrəli biletlərin sahibləri paltaryuyan;
061842, 051846, 017491 nömrəli biletlərin sahibləri qabyuyan;
011942, 006922 nömrəli biletlərin sahibləri soyuducu qazandılar.

Lotereyanın əsas uduşu olan “Volkswagen Polo” avtomobilinin yeni sahibi isə 000667 nömrəli biletin sahibi oldu.

Qaliblərin hər birini təbrik edirik!



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

“Dənizçi” MTK-nin 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarında xarici kanalizasiya, su xətti və yağış kanalizasiya şəbəkəsinin qurulması işlərinin (mal-material və işçilik birlikdə) satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 yanvar 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1053.

***Tender komissiyası***



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

“Dənizçi” MTK-nin 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binaları 1A binasında daxili tamamlama işlərinin (mal-material və işçilik birlikdə) satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 yanvar 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1053.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə

**FƏRRUX ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Nizam, Əli və Rafiq Hüseynovlar, Əlövsət Əliyev, İlham Həsənov, Hacı, Elçin və Fuad Hacıyevlər, Əlibaba Məmmədov və İlham Həmidov ailələri ilə birlikdə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin Katibliyinin müdiri Babək Məmmədova atası

**QİYAS MƏHƏMMƏD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4896
Sifariş 47
Qiyməti 40 qəpik